# Xalq qəzeti

Xalqın qəzeti!

№ 165 (30569) 6 avqust 2024-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti





# Paytaxtın yeniləşən yolları – gözəlliyə açılan qolları

## Prezident İlham Əliyev "Cavanşir" körpüsünün yerində inşa olunmuş yeni avtomobil yolunun açılışında



**Avqustun 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev paytaxtın Xətai rayonu ərazisində "Cavanşir" körpüsünün yerində inşa olunmuş şəhər əhəmiyyətli yeni avtomobil yolunun açılışında iştirak edib.**

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin "Azəryolelmitədqiqatlayihə" İnstitutunun direktoru Azər Nemətli dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Qeyd edək ki, Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, Bakı şəhərində nəqliyyatın hərəkətinin tənzimlənməsi və tıxac probleminin nisbətən azaldılması məqsədilə Xətai rayonu ərazisində Üzeyir Hacıbəyli küçəsində yerləşən və uzun illər istismar edildiyindən yükgötürmə qabiliyyətini itirmiş, uzunluğu 202 metr, eni 17,3 metr təşkil edən 12 aşırımlı "Cavanşir" körpüsü sökülərək, yerində şəhər əhəmiyyətli yeni avtomobil yolunun tikintisi işləri həyata keçirilib. Dörd hərəkət zolaqlı yeni yolun uzunluğu 400 metrdir.

*(ardı 2-ci səhifədə)*

## AZPROMO – xarici aləmə açılan "vahid pəncərə"



Səhifə ⇨ 7

## Yaxın Şərq böhranı dərinləşir



Səhifə ⇨ 11

# Kanada da Cənubi Qafqazı qarışdırmaqdan əl çəkmir



**Azərbaycana qarşı hər zaman qərəzli mövqeyi ilə seçilən Kanadanın Xarici işlər naziri Melani Coli yenə əvvəlki kimi ermənipərəst fikirlər səsləndirməsi ilə gündəmə gəlib. Kanada Erməni Milli Komitəsinin (ANCC) yaydığı məlumat belə düşünməyə əsas verir.**

Kanadalı nazir bir daha təsdiq edib ki, rəsmi Ottava Azərbaycana təzyiq göstərməkdə (?) davam edəcək. Bu təzyiqin məqsədi isə ondan ibarətdir ki, "Azərbaycan Ermənistanla vicdanla işləsin, münaqişəni danışıqlar və sülh yolu ilə siyasi müstəvidə həll etsin, özbaşına saxlanılan erməni məhbusları azadlığa buraxsın, Ermənistanın ərazi bütövlüyünə hörmətlə yanaşsın və güc və hədələyici ritorikadan istifadədən" çəkinsin.

*(ardı 4-cü səhifədə)*

# İrəvan suisid yolunu seçib?

## Ermənilərin Qərblə Şərq arasında vurnuxması intihara aparır



**Sərlövhəyə çıxardığımız sual bir qədər kəskin və radikal proqnoz kimi görünə bilər. Söhbət hansısa fərdin deyil, cəmiyyətin, dövlətin intiharına səbəb ola biləcək tarixi şəraitin yetişməsindən, konkret diaqnozdan gedir. Son otuz ildə işğalçı, işğala məruz qalana yuxarıdan aşağı baxan, amma son nəticədə məğlub statusuna və layiq olduqları miskin duruma düşən hayların sülhdənqaçma cəhdləri hamını bezdirib. Hətta erməni cəmiyyətinin özünü də. Bunu təkcə biz demirik, xarici ekspertlər də eyni qənaəti paylaşırlar. Misal üçün, rusiyalı politoloq, tanınmış publisist və ictimai xadim Dmitri Verxoturov əmindir ki, əgər Ermənistan Rusiyanın dəstəyini tamamilə itirərsə, sonrakı mərhələdə ya bölünə, ya da dövlət kimi ləğv oluna bilər.**

Rusiyadan sürətlə uzaqlaşma, Qərbin "çətirinin" altına sığınma xəttini gizlətməyən Paşinyan iqtidarı ölkəni məhz belə bir duruma, daha doğrusu, dalana gətirib çıxarıb. Doğrusunu desək, mahiyyət etibarı ilə problemlər və bitib-tükənməyən münaqişələr meydançasına çevrilmiş Cənubi Qafqazdan Ermənistan adlı bir ölkənin yox olmasına heç kim üzülməz. Bu acı aqibətlə üzləşib-üzləşməyəcəyi ermənilərin özlərini necə aparacaqlarından asılıdır. Ermənistan hakimiyyətinin ikibaşlı, "ikistul"lu, buqələmun siyasətinin belə acınacaqlı ssenarinin gerçəkləşməsinə gətirib çıxaracağı istisna olunmur.

*(ardı 4-cü səhifədə)*

## Qızılın "rekord" yürüşü



Səhifə ⇨ 6

## Kompüter mühəndisliyini zənginləşdirmiş soydaşımız



Səhifə ⇨ 9

## Azyaşlıların beyni rezin şar deyil

Səhifə ⇨ 9

# Prezident İlham Əliyev “Cavanşir” körpüsünün yerində inşa olunmuş yeni avtomobil yolunun açılışında





(əvvəli 1-ci səhifədə)

Məlumat verildi ki, həm nəqliyyat vasitələrinin, həm də piyadaların ərazidə rahat və təhlükəsiz hərəkətini təmin etmək üçün yeni piyada səkiləri salınıb. Layihəyə uyğun olaraq, ayırıcı zolaqlarda və yol kənarlarında əlavə abadlıq işləri görülüb, münbit torpaq qatı verilərək yeni yaşıllıq əraziləri salınıb, ən müasir işıqlandırma sistemi yaradılıb.

Xatırladaq ki, Bakı şəhəri, Xətai rayonu, Afiyəddin Cəlilov və Üzeyir Hacıbəyli küçələri istiqamətində yerləşən, uzunluğu 202 metr, eni 17,3 metr olan “Cavanşir” yolötürücüsü dəmir yolu vasitəsilə yüklərin qısa zamanda dəniz limanına çatdırılması üçün 1962-ci ildə istismara verilmişdi. Həmin ərazidə dəmir yolu şəbəkəsinin ləğv edilməsi ilə körpünün əvvəlki əhəmiyyətini itirməsi, həmçinin yolötürücüsünün yükgötürmə qabiliyyətinin müasir normativ yük təsirinə cavab verməmədiyi nəzərə alınaraq təhlükəsizlik baxımından bu qurğunun sökülməsi məqsədəuyğun hesab edilmişdi.

*AZƏRTAC*

# Prezident İlham Əliyev Avstraliya səfirinin etimadnaməsini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 5-də Avstraliya İttifaqının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Mayls Robert Armiteycin etimadnaməsini qəbul edib.**

Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.

Prezident İlham Əliyev səfirin ölkəmizə səfərlər edəcəyinə və Azərbaycanın hökumət nümayəndələri ilə əlaqələrimizin gələcək inkişafı məsələlərinə dair səmərəli müzakirələr aparacağına ümidvar olduğunu bildirdi. Azərbaycan Prezidenti ölkələrimizin bir-birindən uzaq məsafədə yerləşməsinə baxmayaraq, iqtisadi-ticari əlaqələrin inkişafı üçün yaxşı potensialın olduğunu vurğuladı.

Siyasi münasibətlərə toxunan Prezident İlham Əliyev ölkələrimiz arasında səmərəli əlaqələrin olduğunu bildirdi, lakin investisiya imkanlarından istifadə və ticarət dövriyyəsinin artırılması sahəsində əməkdaşlığın hələ də lazımi səviyyədə olmadığını qeyd etdi. Dövlətimizin başçısı ümidvar olduğunu bildirdi ki, səfir fəaliyyətində bütün bu sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün səylərini əsirgəməyəcək.

Səfir Mayls Robert Armiteyc Azərbaycanda olmağından böyük məmnunluq hissi keçirdiyini bildirdi və qarşıda əlaqələrimizin genişləndirilməsi üçün görüləsi çox işin olduğunu qeyd etdi. O, xüsusilə iqtisadiyyat və ticarət sahələrində əməkdaşlıq üçün yaxşı imkanların olduğunu diqqətə çatdırdı.

Mayls Robert Armiteyc COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdırdı, ölkələrimiz arasında bu sahədə əməkdaşlıq üçün yaxşı imkanların olduğunu vurğuladı. O, Azərbaycanın qısa vaxt ərzində COP29 Konfransının keçirilməsi üçün bütün zəruri hazırlıq işlərini gördüyünü məmnunluqla qeyd etdi, ölkəmizin kiçik ada dövlətlərinə dəstəyinin, xüsusilə kiçik ada dövlətlərinin qarşıdan gələn Zirvə toplantısında iştirakı məsələsini xüsusi vurğuladı.

Səfir qeyd etdi ki, Avstraliya regionda davamlı sülhün bərqərar olunmasında və Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılmasında maraqlıdır.

Bu xüsusda Prezident İlham Əliyev Azərbaycanın regional sülh gündəliyinin irəli aparılması üçün səylərini bundan sonra da davam etdirəcəyini bildirərək, artıq regionda sülhün mövcud olduğunu qeyd etdi.

Görüşdə, həmçinin ölkələrimiz arasında siyasi dialoqun inkişaf etdirilməsi, mədən sənayesi, yaşıl enerji, gəmiqayırma və biznes dairələri arasında işgüzar münasibətlərin yaradılması məsələlərinə dair fikir mübadiləsi aparıldı.

# “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1197-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1197-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki:

1.1. “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında” Azərbaycan Respublikası Qanununun 32.2-ci maddəsinin birinci və ikinci cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 32.2-ci maddəsinin birinci cümləsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

1.3. həmin Qanunun 32.2-ci maddəsinin birinci cümləsinə əsasən qanunsuz dövriyyədən çıxarılmış və ya müsadirə olunmuş narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi aşağıdakı komissiyalar tərəfindən həyata keçirilir:

1.3.1. Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə qarşı Mübarizə üzrə Dövlət Komissiyası tərəfindən formalaşdırılan külli və xüsusilə külli miqdarlarda olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi üzrə Komissiya;

1.3.2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti tərəfindən formalaşdırılan Naxçıvan Muxtar Respublikasının ərazisində külli və xüsusilə külli miqdarlarda olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi üzrə Naxçıvan Muxtar Respublikasının Komissiyası;

1.3.3. yerli icra hakimiyyəti orqanları tərəfindən formalaşdırılan az və xeyli miqdarlarda olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi üzrə rayon (şəhər) komissiyaları;

1.4. həmin Qanunun 32.2-ci maddəsinin ikinci cümləsində “orqan (qurum)” dedikdə aşağıdakılar nəzərdə tutulur:

1.4.1. külli və xüsusilə külli miqdarlarda olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi üzrə Komissiyaya münasibətdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi və Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu;

1.4.2. Naxçıvan Muxtar Respublikasının ərazisində külli və xüsusilə külli miqdarlarda olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi üzrə Naxçıvan Muxtar Respublikasının Komissiyasına münasibətdə bu Fərmanın 1.4.1-ci yarımbəndində göstərilən orqanların (qurumların) fəaliyyət istiqamətləri üzrə səlahiyyətləri Naxçıvan Muxtar Respublikasının ərazisində həyata keçirən müvafiq orqanlar (qurumlar) və struktur qurumlar;

1.4.3. az və xeyli miqdarlarda olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi üzrə rayon (şəhər) komissiyalarına münasibətdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin və Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin, habelə bu orqanların fəaliyyət istiqamətləri üzrə səlahiyyətləri Naxçıvan Muxtar Respublikasının ərazisində həyata keçirən orqanların (struktur qurumların) rayonlarda (şəhərlərdə) fəaliyyət göstərən müvafiq struktur bölmələri, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (Naxçıvan Muxtar Respublikasında Naxçıvan Muxtar Respublikasının Tibb Müəssisələrinin İdarəetmə Birliyinin) müəyyən etdiyi tabeliyindəki müvafiq tibb müəssisəsi.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1197-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 27 yanvar tarixli 546 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

3.1. 3.1-ci bəndin altıncı – səkkizinci abzasları müvafiq olaraq yeddinci – doqquzuncu abzaslar hesab olunsun və aşağıdakı məzmunda altıncı abzas əlavə edilsin:

“- barəsində məhvetmə qərarı qəbul edilmiş narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi məqsədilə külli və xüsusilə külli miqdarlarda olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi üzrə komissiyaların, habelə az və xeyli miqdarlarda olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi üzrə rayon (şəhər) komissiyalarının fəaliyyətinə nəzarət edir;”.

3.2. 5.1-ci bəndin beşinci abzasına “qərarlarını” sözündən sonra “, həmçinin Komissiyanın fəaliyyəti ilə bağlı icrası məcburi olan daxili əmr və sərəncamları” sözləri əlavə edilsin.

**4.** “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında” Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 22 may tarixli 578 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 5, maddə 460 (Cild I) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 1.1-ci bənd 1.1-2-ci bənd hesab olunsun və həmin bənddə “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında” Azərbaycan Respublikası Qanununun” sözləri “həmin Qanunun” sözləri ilə əvəz edilsin;

4.2. aşağıdakı məzmunda 1.1-ci, 1.1-1-ci və 1.6-cı bəndlər əlavə edilsin:

“1.1. “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında” Azərbaycan Respublikası Qanununun 32.2-ci maddəsinin birinci və ikinci cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.1-1. həmin Qanunun 32.2-ci maddəsinin birinci cümləsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;”;

“1.6. həmin Qanunun 32.2-ci maddəsinin ikinci cümləsində “orqan (qurum)” dedikdə aşağıdakılar nəzərdə tutulur:

1.6.1. külli və xüsusilə külli miqdarlarda olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi üzrə Komissiyaya münasibətdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi və Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu;

1.6.2. Naxçıvan Muxtar Respublikasının ərazisində külli və xüsusilə külli miqdarlarda olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi üzrə Naxçıvan Muxtar Respublikasının Komissiyasına münasibətdə bu Fərmanın 1.6.1-ci yarımbəndində göstərilən orqanların (qurumların) fəaliyyət istiqamətləri üzrə səlahiyyətləri Naxçıvan Muxtar Respublikasının ərazisində həyata keçirən müvafiq orqanlar (qurumlar) və struktur qurumlar;

1.6.3. az və xeyli miqdarlarda olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi üzrə rayon (şəhər) komissiyalarına münasibətdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin və Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin, habelə bu orqanların fəaliyyət istiqamətləri üzrə səlahiyyətləri Naxçıvan Muxtar Respublikasının ərazisində həyata keçirən orqanların (struktur qurumların) rayonlarda (şəhərlərdə) fəaliyyət göstərən müvafiq struktur bölmələri, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (Naxçıvan Muxtar Respublikasında Naxçıvan Muxtar Respublikasının Tibb Müəssisələrinin İdarəetmə Birliyinin) müəyyən etdiyi tabeliyindəki müvafiq tibb müəssisəsi.”;

4.3. 1.5-ci bənd aşağıdakı redaksiyada verilsin:

“1.5. həmin Qanunun 32.2-ci maddəsinin birinci cümləsinə əsasən qanunsuz dövriyyədən çıxarılmış və ya müsadirə olunmuş narkotik vasitələr, psixotrop maddələr və onların prekursorlarının məhv edilməsi aşağıdakı komissiyalar tərəfindən həyata keçirilir:

1.5.1. Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə qarşı Mübarizə üzrə Dövlət Komissiyası tərəfindən formalaşdırılan külli və xüsusilə külli miqdarlarda olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi üzrə Komissiya;

1.5.2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti tərəfindən formalaşdırılan Naxçıvan Muxtar Respublikasının ərazisində külli və xüsusilə külli miqdarlarda olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi üzrə Naxçıvan Muxtar Respublikasının Komissiyası;

1.5.3. yerli icra hakimiyyəti orqanları tərəfindən formalaşdırılan az və xeyli miqdarlarda olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi üzrə rayon (şəhər) komissiyaları;”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 5 avqust 2024-cü il**

# Prezident İlham Əliyev Burkina Faso səfirinin etimadnaməsini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 5-də Burkina Fasonun ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Vinta Somenin etimadnaməsini qəbul edib.**

Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.

Azərbaycanın Burkina Faso ilə münasibətlərin hərtərəfli inkişafında maraqlı olduğunu deyən Prezident İlham Əliyev ölkələrimiz arasında bütün sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların mövcudluğunu bildirdi. Dövlətimizin başçısı iqtisadi-ticari sahədə əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsinin zəruriliyini qeyd etdi, Azərbaycanın Burkina Fasoya investisiya yatırması imkanlarının araşdırılmasının önəmini vurğuladı.

Beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığa toxunan Azərbaycan Prezidenti, ilk növbədə, BMT-də, Qoşulmama Hərəkatında qarşılıqlı dəstəyin göstərilməsinin vacibliyini qeyd etdi. Prezident İlham Əliyev Azərbaycanın dörd il ərzində Qoşulmama Hərəkatına uğurla sədrlik etdiyini vurğulayaraq, ölkəmizin bu dövrdə xüsusi diqqət yetirdiyi mövzulardan birinin də müstəmləkəçilik, neomüstəmləkəçilik və bununla mübarizə məsələsinin olduğunu bildirdi. Bu xüsusda Fransanın həyata keçirdiyi neomüstəmləkəçilik siyasətinin ikrah hissi doğurduğunu qeyd edən dövlətimizin başçısı Azərbaycanın bu siyasətə qarşı öz səsini ucaltdığını və qanlı müstəmləkəçilik tarixi olan Fransanın bu gün də əsarət altında saxladığı xalqlara müstəqillik, azadlıq tələb etdiyini vurğuladı. Prezident İlham Əliyev Azərbaycanın qeyri-hökumət təşkilatlarının da bu istiqamətdə beynəlxalq qeyri-hökumət hərəkatı çərçivəsində fəal iş apardığını bildirdi.

Fransanın ölkəmizə qarşı qərəzli mövqeyindən danışan Prezident İlham Əliyev Azərbaycanın öz torpaqlarını işğaldan azad edəndən sonra Fransanın əsl simasını nümayiş etdirdiyini, BMT-də, Avropa İttifaqında ölkəmizə qarşı ədalətsiz şəkildə fəaliyyət həyata keçirdiyini qeyd etdi.

Söhbət zamanı dövlətimizin başçısı Azərbaycanın Afrika İttifaqı yanındakı səfirinə Afrika ölkələri ilə daha sıx münasibətlərin qurulması, onlarla müxtəlif istiqamətlər üzrə ikitərəfli formatda konkret əməkdaşlıq məsələlərinin planlaşdırılması barədə də təlimat verildiyini qeyd etdi.

Səmimi qəbula görə təşəkkürünü bildirən səfir, ilk növbədə, ölkəsinin lideri Brahim Traorenin salamlarını, eyni zamanda, dövlətimizin başçısının yenidən Prezident seçilməsi, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi və Qoşulmama Hərəkatına uğurlu sədrlik etməsi münasibətilə təbriklərini Prezident İlham Əliyevə çatdırdı.

Dövlətimizin başçısı salamlara və təbriklərə görə minnətdarlığını bildirdi, onun da salamlarını Burkina Fasonun liderinə çatdırmağı xahiş etdi.

Səfir Vinta Some Azərbaycan ilə ölkəsinin strateji səviyyədə hərtərəfli əməkdaşlığa hazır olduğunu, yaxın vaxtlarda geniş tərkibli Azərbaycan nümayəndə heyətinin Burkina Fasoya səfər edəcəyini vurğuladı. O, ölkələrimiz arasında enerji, kənd təsərrüfatı, təlim, təhsil, terrorizmə qarşı mübarizə və digər sahələrdə əməkdaşlıq üçün geniş perspektivlərin olduğunu qeyd etdi.

Vinta Some ölkəsinin Azərbaycanın müstəmləkəçiliyə qarşı mübarizədə verdiyi dəstəyi yüksək qiymətləndirdiyini qeyd etdi. O, Afrikanın sahil regionunda baş verən proseslər haqqında məlumat verdi, artıq qitədə panafrikanizm hərəkatının güclənərək yeni vüsət aldığını vurğuladı.

Səfir COP29-un təşkilində Azərbaycana uğurlar arzuladı və Burkina Fasonun da bu tədbirdə müvafiq səviyyədə təmsil olunacağını diqqətə çatdırdı.

# Pakistan səfiri etimadnaməsini Prezident İlham Əliyevə təqdim edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 5-də Pakistan İslam Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Qasım Mohiuddinin etimadnaməsini qəbul edib.**

Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.

Pakistana dövlət səfərini məmnunluqla xatırlayan Azərbaycan Prezidenti ona və nümayəndə heyətinə göstərilən qonaqpərvərliyin çox xoş təsir bağışladığını dedi, bunun ölkələrimiz və xalqlarımız arasında dostluğu, qardaşlığı və tərəfdaşlığı nümayiş etdirdiyini bir daha vurğuladı.

Dövlətimizin başçısı bu səfərin önəminə toxunaraq, əməkdaşlığımıza dair geniş sahələri əhatə edən məsələlərin müzakirə olunduğunu və sənədlərin imzalandığını məmnunluqla xatırladı. Prezident İlham Əliyev bu dövlət səfəri nəticəsində Azərbaycan–Pakistan əlaqələrinin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu, səfər çərçivəsində müxtəlif sahələrdə, o cümlədən investisiya qoyuluşu və enerji sahələrində yeni əməkdaşlıq istiqamətlərinin müəyyən edildiyini vurğuladı. Dövlətimizin başçısı Pakistana dövlət səfəri zamanı qəbul olunmuş qərarların, əldə edilmiş razılaşmaların və imzalanmış sənədlərin həyata keçirilməsi istiqamətində hər iki tərəfin iş apardığını bildirdi. Azərbaycan Prezidenti preferensial ticarət sazişinin önəmini qeyd edərək, bu sənədə yeni maddələrin əlavə edilməsi istiqamətində aidiyyəti qurumlar tərəfindən işlərin həyata keçirildiyini vurğuladı.

Prezident İlham Əliyev ərazilərimizin işğalına görə Pakistanın Ermənistan ilə diplomatik əlaqələr qurmamasını, hətta torpaqlarımızın azad edilməsindən və suverenliyimizin tam bərpa olunmasından sonra da bunu etməməsini bir daha əsl dostluğun və qardaşlığın təzahürü kimi yüksək qiymətləndirdi. Dövlətimizin başçısı Pakistan rəhbərliyinin Vətən müharibəsi dövründə Azərbaycana göstərdiyi siyasi dəstəyin bizim üçün böyük önəm daşıdığını bir daha vurğuladı.

Azərbaycan Prezidenti səfir Qasım Mohiuddinə diplomatik fəaliyyətində uğurlar arzuladı.

Xoş sözlərə və qəbula görə minnətdarlığını bildirən səfir Pakistan Prezidenti Asif Əli Zərdarinin və Baş nazir Məhəmməd Şahbaz Şərifin səmimi salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da səmimi salamlarını Pakistan Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.

Ölkəmizə böyük məhəbbət hissi bəslədiyini qeyd edən səfir Azərbaycan kimi gözəl bir ölkədə Pakistanı təmsil etməkdən qürur hissi duyduğunu bildirdi.

Səfir dövlətimizin başçısının Pakistana dövlət səfəri zamanı müəyyən olunmuş strateji əməkdaşlıq istiqamətlərinin həyata keçirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini qeyd etdi. O, Azərbaycanın Pakistana dəstəyini, xüsusən Cəmmu və Kəşmir məsələsinin BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun qaydada həllinə dair ölkəmizin ədalətli mövqeyinin önəmini vurğuladı.

**AZƏRTAC**

# XİN-in İsrail və Fələstindəki vəziyyətlə bağlı xəbərdarlığı

**Azərbaycan Xarici İşlər Nazirliyi ölkə vətəndaşlarına Fələstin və İsraildəki vəziyyətlə bağlı xəbərdarlıq edib.**



Nazirliyin yaydığı açıqlamada Fələstin Dövlətinin və İsrail Dövlətinin yerləşdikləri regionda sürətlə dəyişən təhlükəsizlik vəziyyəti nəzərə alınaraq, Azərbaycan Respublikası vətəndaşlarına zəruri olmadığı təqdirdə həmin ölkələrə səfər etməmələri tövsiyə olunur.

Eyni zamanda, bildirilir ki, həmin ölkələrdə yaşayan və səfərdə olan Azərbaycan Respublikası vətəndaşlarının mühafizə və təhlükəsizlik qaydalarına riayət etmələri, əhalinin sıx toplaşdığı yerlərə getməmələri zəruridir.

***XQ***

# Toivo Klaarın növbəti qərəzi

**Avropa İttifaqının Cənubi Qafqaz üzrə keçmiş xüsusi nümayəndəsi, Avropa İttifaqının Özbəkistandakı səfiri təyin edilmiş Toivo Klaarın Azərbaycanın Qarabağ bölgəsindən könüllü əsasda Ermənistana və əvvəllər yaşadıqları digər ölkələrə miqrasiya etmiş ermənilərin qayıtması məsələsini xüsusi hal kimi nəzərdən keçirməsi, indiki Ermənistan ərazisindən zorla qovulmuş azərbaycanlıların qayıdış hüququnu şərtləndirməsi qəbuledilməzdir.**



Bu barədə Xarici İşlər Nazirliyinin Mətbuat katibinin müavini Vasif Əliyev Avropa İttifaqının Cənubi Qafqaz üzrə keçmiş xüsusi nümayəndəsi Toivo Klaarın ölkəmiz ilə bağlı verdiyi müsahibədə yer alan bəzi iddialara dair medianın sualına cavabında deyib.

O bildirib ki, Ermənistandan qovulmuş azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə öz doğma torpaqlarına geri dönməsi üçün müvafiq şərait yaradılması Ermənistanın öhdəliyidir və beynəlxalq ictimaiyyət bu öhdəliyin yerinə yetirilməsini tələb etməlidir.

Azərbaycan tərəfinin dəfələrlə erməni sakinlərin öz evlərində qalması və onların geri qayıtması üçün müraciətlər etməsinə baxmayaraq, ermənilərin suveren Azərbaycan ərazilərinə geri dönmək niyyətində olmadığı səfir təyin edilmiş Toivo Klaara yaxşı məlumdur. Bu xüsusda, Azərbaycan tərəfi yalnız ölkəmizin ərazi bütövlüyü və suverenliyinə hörmət edən erməniəsilli şəxslərin Azərbaycana qayıtması niyyətinə hörmətlə yanaşır.

Vəzifədən gedən ərəfədə səlahiyyətlərinə aid olmadan bu kimi qərəzli açıqlamalar verməsi ilk növbədə Aİ rəsmisinin təmsil etdiyi qurumun reputasiyasına vurduğu növbəti zərbədir.

**XQ**

# Allahşükür Paşazadə Səudiyyə Ərəbistanında

**Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə Səudiyyə Ərəbistanı Krallığında səfərdədir.**



Səudiyyə Ərəbistanının İslam işləri, irşad və dəvət naziri Əbdüllətif bin Əbdüləziz Al Əş-Şeyxin dəvəti ilə həyata keçirilən səfər çərçivəsində A.Paşazadə avqustun 4-də Məkkə şəhərində keçirilən "Mötədillik prinsiplərinin möhkəmləndirilməsində Vəqflər və İslam işləri üzrə qurumların rolu mövzusunda" beynəlxalq konfransda iştirak edib.

Sayca 9-cu dəfə təşkil olunan konfransa 60-dan çox müsəlman dövləti təmsil edən rəsmi şəxslər, İslam aləminin nüfuzlu din xadimləri qatılıblar.

Səudiyyə Ərəbistanı Kralının himayəsi ilə baş tutan nüfuzlu forumda çıxış edən şeyxülislam A.Paşazadə dünya müsəlmanlarının müqəddəs məkanı Məkkədə belə bir tədbirin keçirilməsinin İslam dünyası üçün xüsusi önəm daşıdığını vurğulayıb.

Bu gün dünyanın müxtəlif nöqtələrində baş verən qarşıdurma və sülhə təhdid olan halların qarşısının alınması üçün İslam aləmi daxilində həmrəyliyin güclənməsi, məzhəblərarası anlaşma mühitinin möhkəmləndirilməsinin xüsusi zərurət kəsb etdiyinə diqqəti çəkən Şeyxülislam A.Paşazadə İslam dünyasının mötədil, dinlərarası tolerantlıq və məzhəblərarası anlaşma məkanı olan Azərbaycanın örnək təcrübəsindən, bu istiqamətdə dövlətimizin səylərindən danışıb.

A.Paşazadə islamofobiya hallarının artmasına xüsusi toxunub, məkrlə düşünülmüş, planlaşdırılmış siyasi oyunların təhlükəli fəsadlarının önünü kəsmək üçün ən münasib qərar olaraq Məkkədə İslam dünyasının Fətva şuralarının beynəlxalq mərkəzinin yaradılması təklifi irəli sürüb. Bildirib ki, bir mərkəzdən verilən qərarlar və qəbul edilən fətvalar İslam ümmətinin gələcəyini mütərəqqi şəkildə yönəltməli, İslam daxili münaqişələrin aradan qaldırılmasına, müsəlman ümməti daxilində anlaşma mühitinə xidmət etməlidir.

Çıxışı zamanı QMİ sədri Azərbaycanda bu ilin noyabrında keçiriləcək COP29 tədbiri barədə məlumat verib, konfrans çərçivəsində bir sıra görüşlər keçirib.

**XQ**

# Tuva Cihangir Atasever Laçında



**Türkiyənin iki kosmonavtından biri Tuva Cihangir Atasever Diasporla İş üzrə Dövlət Komitəsinin dəvəti və təşkilatçılığı ilə Laçında keçirilən "Gənclər Yaşıl Dünya Naminə" Diaspor Gənclərinin V Yay Düşərgəsinin qonağı olub.**

Gənclər Cihangirin Azərbaycanın işğaldan azad olunmuş torpaqlarına, o cümlədən Laçına səfərini, düşərgədə iştirakını, onlarla görüşünü yüksək qiymətləndiriblər. Onun Azərbaycan bayrağını kosmosa aparmasından fərəh və qürur duyduqlarını bildiriblər. Qonaq kosmosa uçuşu və orada keçirdiyi elmi tədqiqatlar barədə ətraflı məlumat verib, sualları cavablandırıb.

Qeyd edək ki, Türkiyənin 36 min namizədin içindən seçilən ilk iki kosmonavtından biri olan Tuva Cihangir Atasever ana tərəfdən azərbaycanlıdır. "Roketsan"da sistem mühəndisi işləyən Atasever Bilkent Universitetinin Elektrik və Elektronika Mühəndisliyi bölümündən məzun olub, İrvayn şəhərindəki Kaliforniya Universitetində elektrik-elektronika mühəndisliyi sahəsində magistr təhsili alıb.

**XQ**

# İrəvan suisid yolunu seçib?

(əvvəli 1-ci səhifədə)

Bəs, həmin taleyi yaşamamaq üçün Paşinyan iqtidarı nə etməlidir? İndiki vəziyyətdə onun üçün ən düzgün seçim sülh yolundan dönməmək və ən ümdəsi, diaspordan uzaqlaşmaqdır. Amma nə yazıq ki, Ermənisyan hökuməti keçmiş zamanda yaşayan diasporun təsirindən qurtula bilmir, onun əməllərinin ölkəyə və cəmiyyətə yalnız zərər vurduğunu da etiraf etməyə qorxur. Paşinyan iqtidarı xaricdə rahat yaşayan ermənilərin diktəsi ilə oturub-durmamalı, tarixi Hayastanın deyil, real Ermənistanın maraqlarından çıxış etməlidir. O, nəhayət, anlamalıdır ki, nə Fransa, nə də ABŞ-dakı ermənilər İrəvana köçüb gələcək. Çünki onları əhalinin qayğıları deyil, "böyük güclər"in oyunu maraqlandırır.

Beləliklə, kollektiv Qərbin Ermənistanı silahlanmaqla revanş götürəcəyinə, məğlubiyyətin əvəzini çıxa biləcəyinə inandırmağa çalışdığı açıq-aşkar hiss olunmaqdadır. Bu avantürist ideya ilə, hətta, praqmatik mövqeli hay ekspertləri də razılaşmağa başlayıblar. Onlardan biri – siyasi ekspert Robert Ananyan hesab edir ki, Qərbin Ermənistan silahlı qüvvələrində aparılan islahatlarda iştirakı reallığa çevrilir: "Bu, tarixi bir hadisədir. Çünki 1991-ci ildə müstəqillik əldə etdikdən sonra Ermənistan öz təhlükəsizlik sistemini Rusiyanın hərbi təchizatları, eləcə də onun hərbi islahatlarda iştirakı əsasında qurub. Amma son illərin təcrübəsi sübut etdi ki, Moskvanın Azərbaycan və Türkiyəni cilovlamaq mexanizmi saxtadır".

Özünün genişhəcmli analitik məqaləsində 44 günlük müharibədə işğalçı Ermənistanın yanında durmayanları, ona hərtərəfli hərbi dəstək verməyənləri qınayan Ananyan İrəvanın özünə müttəfiq saydığı Rusiyanın Azərbaycan və Türkiyə ilə gizli sövdələşməyə girməsindən dəm vurur: "Məsələ təkcə ondan ibarət deyil ki, 2011-2020-ci illərdə Rusiya və Belarus birlikdə Azərbaycanı silahlarla 67 faiz təmin ediblər. Onlar, mahiyyətcə, Ermənistana qarşı müharibəyə hazırlaşan Azərbaycanı dəstəkləyiblər".

İrəvanın siyasi kursunda kəskin dəyişikliklər baş verməsəydi, müəyyən müddətdən sonra Rusiyanın Ermənistanı dövlətçilikdən, sadəcə, məhrum etməklə, onu "udmaqla" məsələni bitirəcəyinə əmin olan hay ekspertə görə, ölkəsi Fransa, Birləşmiş Ştatlar və digər beynəlxalq tərəfdaşlardan qısamüddətli və ya uzunmüddətli hərbi-texniki yardım almağa davam etməlidir.

"Ermənistan onilliklər boyu Rusiyanın hökmranlığı altında olduğu üçün özünün "dondurulmuş" Qərblə əməkdaşlıq potensialını bu gün reallaşdırır. Qərblə təhlükəsizlik sahəsində əməkdaşlıq İrəvana siyasi müstəqillik, Rusiya hökmranlığından xilas olmaq şansı gətirir. Ola bilsin ki, Azərbaycan və Rusiya məhz buna görə Paşinyanın Fransa və ABŞ ilə təhlükəsizlik sahəsində əməkdaşlığına mənfi reaksiya verir", – yazan Ananyan Ermənistanın həm hərbi, həm iqtisadi, həm də enerji baxımından Rusiyadan asılılığının Azərbaycan üçün faydalı olduğunu bildirir.



* * *

Analitik məqaləsinin sonunda Robert Ananyanın gəldiyi qənaətin bir qismi ilə razılaşmamaq mümkün deyil: "Ermənistanın Rusiyadan kritik asılılığı bir ildə yaranmayıb və bunu bir ildə də aradan qaldırmaq olmaz. Biz strateji səbrimizi qoruyub keyfiyyətli iş görməliyik. Ermənistan dövlətçiliyini qoruyub saxlamaqdan ötrü başqa variantımız yoxdur".

Deməli, erməni siyasilərinin bir qismi hələ də İrəvanın Rusiyadan tamamilə qopa biləcəyinə və bölgəyə Qərbin yeriyəcəyinə inanmaqda davam edir. Onlar bu zaman Ermənistan ordusunun ən müasir silahlara mailk olmasını zəruri şərt kimi qəbul edirlər. Əslində, İrəvanın ABŞ və Fransa ilə yaxınlaşmaq səyləri, bu haypərəst sponsorlardan Ermənistana silah tədarükü təkcə Bakıda deyil, Ankarada da narahatlıq doğurur.

Moskvadan uzaqlaşma fonunda İrəvanın Vaşinqton və Parisin timsalında regiondankənar aktorların dəstəyini qazanmaq istəyi problemə real yanaşma olmadığı kimi, düzgün həll variantı da deyil. Baş nazir Nikol Paşinyan Ermənistan ictimaiyyətinə regionda sülhün faydalarını izah etməli, nə Türkiyə, nə də Azərbaycanın Ermənistan üçün təhlükə mənbəyi deyil, dənizə çıxışdan məhrum bu ölkənin inkişafı üçün güclü təkan rolunu oynaya biləcək qonşular olduğunu başa salmalıdır.

Fəqət, bu zaman İran amilini də kənara qoymaq olmaz. Yeni prezident dönəmində Tehranın bölgəyə yönəlik siyasətində dəyişiklik nəzərə çarpmasa da, anti-Qərb ritorikasının gücləndiyini söyləyə bilərik. Bu cəbhədə İranın Ermənistandakı səfiri Mehdi Subhani həmişə özünün fəallığı ilə seçilib. On gün əvvəl İran və Ermənistan arasında 500 milyon dollarlıq hərbi müqavilənin bağlanması xəbərini təkzib edən Subhani bu dəfə ABŞ-nin Cənubi Qafqaz siyasətini yüksək avazla tənqid edərək "3+3" formatından (Azərbaycan, Ermənistan, Gürcüstan + Türkiyə, Rusiya, İran) istifadənin faydalı ola bilcəyini ərz edib. Belə görünür ki Tehran Vaşinqtonla münasibətləri yaxşılaşdırmağa tələsmədən Avropa İttifaqı ilə əməkdaşlığa meyillənib. Həmin Subhani bir qədər əvvəl "3+3" formatının müsbət cəhətlərinə işarə etsə də, hökumətinin bunda israrlı olmadığını açıq şəkildə bildirmişdi: "Biz bu və ya digər formatın tərəfdarı deyilik. Biz ilk növbədə sülhün bərqərar olmasında maraqlıyıq. Məqsəd odur ki, bölgədə sülh bərqərar olsun, ölkələr bir-birinin ərazi bütövlüyünə və suverenliyinə hörmət etsin, hərbi həll yollarına əl atmasın, sabitlik, iqtisadi inkişaf və firavanlıq mühiti formalaşsın. "3+3" formatı sülhə aparan yollardandır. Bu, vəziyyəti sakitləşdirə və ölkələri bir-birinin ətrafında birləşdirə biləcək variantlardan biridir".

* * *

Ermənistan rəhbərliyinin İrana qarşı ən maraqlı jestlərindən biri Fələstinə və İsrailə qarşı kursunu tamamilə dəyişməsi oldu. Xatırladaq ki, 2020-ci ildə Paşinyan İrəvanda İsrailin səfirliyini açmağa tələsirdi. İndi o, anti-İsrail ritorikası və Fələstin muxtariyyatı ilə yüksək münasibətlər qurması ilə Tehranı sevindirməyə tələsir. Deyəsən, Tehran bu jesti lazımınca qiymətləndirdi və Ermənistan Təbrizdə baş konsulluğunu açmaq ərəfəsindədir.

Aydın məsələdir ki, Paşinyan Fələstinyönlü radikal mövqe tutmaq üçün qərbli "dirijorlar"ından icazə alıb. Bu səbəbdən onlar İrəvan siyasilərinin Yaxın Şərq qarşıdurmasına bu qədər açıq reaksiya verməsinə bir söz demədilər. Üstəlik, cümə axşamı keçirilən brifinqdə Dövlət Departamentinin nümayəndəsi Ermənistana İran silahlarının tədarükü ilə bağlı xəbərləri şərh etməkdən yayındı. Söhbət İranın xaricdəki hərəkətləri ilə bağlı ən xırda məlumatları belə böyük məmnuniyyətlə şərh edən və tirajlayan Dövlət Departamentindən gedir.

Nə gizlədək, uzun müddət Ermənistan üçün "dünyaya pəncərə" rolunu İrandan keçən yol oynayıb. Hətta 44 günlük savaşda belə İrəvan üçün yalnız İran sərhədi açıq qalıb. Bəli, indi bu yol yalnız iki qonşu ölkənin deyil, bölgənin, iki qitənin maraq dairəsinin kəsişmə nöqtəsidir. İndiki məğlub Ermənistan dövləti isə bu transmilli layihədən öz payını real oyunçulardan deyil, üçüncü tərəflərdən umur. Bunu da Qərbin bu ölkəyə qarşı artan sanksiyaları nəticəsində Rusiya istiqamətinin itirilməsi və Gürcüstandan keçən yolların bağlanması halında edir. Belə çıxır ki, Azərbaycanla sülh müqaviləsi olmadan ABŞ, Fransa, Aİ, o cümlədən İranın Paşinyana təklif etdiyi bütün digər şərtlər, yollar və vasitələr intihar etmiş adama uzadılan çubuq kimi bir şeydir.

***İmran BƏDİRXANLI***
***XQ***

### Ekspert rəyi



**Fərid ŞƏFİYEV,**
**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin sədri, politoloq**

– Etiraf etmək lazımdır ki, Avropa İttifaqının və ABŞ-nin sülh danışıqlarında vasitəçiliyi müəyyən mərhələdə müsbət nəticə vermişdi. Amma hazırda onlar hadisələri qabaqlamağa çalışırlar. Bakı öz hədəflərinə nail olmadan sülh sazişini imzalamayacaq. Bu hədəflər beynəlxalq hüquqda və təcrübədə qəbul edilmiş qaydalara əsaslanır. Həmin müqavilənin imzalanması formal xarakter daşımamalıdır. İrəvan real və konkret addımlar atmalıdır, o cümlədən, konstitusiyasını dəyişməlidir. Təəssüflər olsun ki, bu məsələdə Ermənistan tərəfdən müəyyən çətinliklər var. Buna baxmayaraq, qərbli aktorlar məsələnin tezliklə həll olunmasına, problemlərin hansısa formada aradan qaldırılmasına çalışırlar.

Aydın məsələdir ki, sülh danışıqları ilə bağlı Qərb platformalarında keçirilən görüşlər Rusiyada qısqanclıq hissləri yaradır. Bu da təbiidir. Ümumiyyətlə, hesab edirik ki, bölgədə yaranməş mövcud vəziyyət Rusiyaya qarşı istifadə olunmamalıdır. Əks-təqdirdə, Moskvanın əlində bu təmayüllərə qarşı dövriyyəyə buraxacağı yetərli qədər alətləri var. Təcrübə onu göstərdi ki, sülh danışıqlarını vasitəçisiz, birbaşa dialoq yolu ilə davam etdirmək uğurlu taktikadır. Əsas odur ki, iki tərəf öz aralarında, mahiyyət etibarilə, konkret razılığa gəlməlidir.

### Ekspert rəyi



**Elxan ŞAHİNOĞLU,**
**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, siyasi icmalçı:**

– Ermənistan baş naziri Nikol Paşinyan ordusunu ABŞ və NATO standartları səviyyəsinə qaldırmaq istəyir. Buna görə hər bir zəmində Rusiyadan uzaqlaşmağa və yaxın gələcəkdə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından çıxmağa çalışır. Amma, bu, çox çətin prosesdir. Nəyə görə? Azərbaycan üçün ordunu NATO standartlarına çevirmək ona görə asan idi ki, bizim Rusiya ilə hərbi baxımdan bağlılığımız yoxdur. Üstəlik, Azərbaycan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü deyil. Amma Ermənistan, birincisi, KTMT-nin üzvüdür. İkincisi, bu ölkənin ərazisində Rusiyanın hərbi bazaları var. Üçüncüsü isə Ermənistan ordusunun, demək olar ki, bütün zabit heyəti ya SSRİ, ya da Rusiya hərbi akademiyalarının məzunudur. Onların da bir qismi Rusiya hərbi kəşfiyatına bağlı kadrlardır. Bu səbəbdən Paşinyan ordunu NATO standartlarına çevirməyə nə qədər çalışsa da, bunu eləmək çox çətin olacaq. Hansısa birgə təlimlər keçirməklə bu işi görmək mümkün deyil. Axı onların silahlarının da böyük əksəriyyəti sovet, yaxud Rusiya istehsalıdır. Ordunu Qərb standartına çevir, silahı ilə Rusiya silahı qalsın, bu, mümkün olan məsələ deyil. Doğrudur, Zvartnos hava limanından Rusiya sərhədçilərini çıxardı, görək Türkiyə və İranla sərhəddəki rus hərbçilərini yola sala biləcəkmi? Bilməz! Bunu Paşinyan özü də etiraf edib.

# Kanada da Cənubi Qafqazı qarışdırmaqdan əl çəkmir

(əvvəli 1-ci səhifədə)

Əslində, M.Colinin təqdim etdiyimiz bu fikrindən sonra bir sual işarəsi qoymaq yerinə düşərdi. Ancaq kanadalı nazirin danışığı o qədər cəfəngdir ki, sual işarəsinin onunla bağlı təəccüb və heyrətimizi ifadə etməyə yetməyəcəyini düşünüb bundan imtina etdik. Açıq-aşkar görünür ki, xanım nazir bölgədəki reallıqlar barədə məlumatsızdır. Daha doğrusu, pis bilir. Görünür, bu ya Kanadanın Cənubi Qafqaz regionundan az qala on min kilometr uzaqlıqda yerləşməsi, ya nazirin işinə laqeyd yanaşması, ya da Colinin ermənipərəstliyinin yüksək dərəcəsi ilə bağlıdır. Sonuncu variant daha ağlabatandır. Məsələ ondadır ki, Kanadada böyük erməni diasporu mövcuddur. Onların sayı ilə bağlı son göstərici 2011-ci ilə aiddir. Həmin il keçirilən siyahıyaalmanın nəticələrinə görə, Kanadada 55 min 740 nəfər erməni yaşayırdı. Onlardan 30 min 130 nəfəri erməni dilini öz ana dili hesab etdiyini bildirmişdi. Digər qiymətləndirməyə görə isə Kanadadakı ermənilərin sayı 100 min nəfərə yaxındır. Özlərini "kanadahayer" adlandıran erməni diasporunun əksəriyyəti Yaxın Şərqdən və bəzi Avropa ölkələrindən gələnlərdir. Sovet İttifaqının dağılmasından sonra, ələlxüsus son illərdə Kanadaya Ermənistandan mühacirət edənlərin sayında artım müşahidə olunur. Kanada erməniləri əsasən ölkənin mərkəzində yerləşən Ontario əyalətində (Toronto və Ottava şəhərlərində) və fransızdilli əhalinin çoxluq təşkil etdiyi Kvebek əyalətində (Monreal və Laval şəhərlərində) məskunlaşıblar. Onlar bu əyalətlərin ictimai həyatında fəal iştirak edirlər. Həmçinin, ölkənin mərkəzində, Atlantik okeanı sahilində yerləşən digər əyalətlərdə və Britaniya Kolumbiyasında da kiçik erməni icmaları mövcuddur.

Kanadalı nazirin ermənipərəst bəyanatlarının, regiondakı reallıqları bilmədən onlarla bağlı açıqlamalarının gələcək seçkilərdə erməni əsilli seçicilərin səsini almağa hesablandığı şübhə doğurmur. İstənilən halda, onun fikirləri şimal yarımkürəsinin, bütövlükdə, dünyanın ən böyük dövlətlərindən biri, G-7 qrupunda təmsil olunan Kanadanın nüfuzuna böyük zərbədir. Rəsmi Ottava bu kimi əməlləri ilə özünü gözdən saldığının fərqində olmalıdır. Azərbaycan torpaqlarını 30 ilə yaxın işğal altında saxlamış, soyqırımı cinayətləri törətmiş, mülki infrastrukturu məqsədyönlü şəkildə kütləvi surətdə dağıtmış, mədəni irsimizi məhv etmiş, ətraf mühitimizə və biomüxtəlifliyə ziyan vurmuş Ermənistana hərtərəfli dəstək göstərən ölkəyə münasibət başqa cür ola bilməz.



Onu da qeyd etmək lazımdır ki, Kanadanın Ermənistana dəstəyi, son illərdə, xüsusilə Nikol Paşinyanın ölkədə hakimiyyətə yiyələnməsindən sonra xeyli artıb. Məsələn, Robert Koçaryanın, Serj Sarkisyanın hakimiyyətdə olduqları dövrdə Kanada–Ermənistan əlaqələri indiki kimi deyildi. Əlaqələrin inkişafında, Kanadanın bugünkü ermənipərəstliyində Fransa amilinin mühüm rolu var. Kanadanın baş naziri, ölkənin fransızdilli əhalisinə aid olan Castin Trüdo Paşinyanın baş nazir seçilməsindən az sonra – 2018-ci il oktyabrın 7-12-də Beynəlxalq Frankofoniya Təşkilatının İrəvanda keçirilən XVII sammitində iştirak etmək üçün İrəvana səfərə gəlmişdi. Təbii ki, həmin sammitdə Fransa prezidenti Emmanuel Makron da iştirak etdirdi. Kanada Xarici İşlər Nazirliyi tərəfindən vaxtaşırı Ermənistan–Azərbaycan münasibətləri barədə bəyanatlar verilir. Rəsmi Ottava tez-tez vəziyyəti gərginləşdirən təşəbbüslərlə çıxış edir.

Kanada 2023-cü il oktyabrın 25-də Ermənistanda səfirlik açmışdı. Hazırda ermənipərəst açıqlaması ilə gündəmdə olan xarici işlər naziri M.Coli bu məqsədlə İrəvana səfər etmişdi. Bundan bir qədər öncə – avqustun 18-20-də isə Coli erməni diasporunun Monrealda keçirilən illik festivalında çıxış edərək Kanadanın Qarabağ erməniləri ilə bağlı məsələlərin həllində fəal rol oynayacağını bəyan etmişdi. O vaxt "ermənilər Artsaxda real təhlükə ilə üz-üzədir" – deyən nazir bildirmişdi ki, onun təmsil olunduğu hökumət Cənubi Qafqazda baş verən proseslərə fəal şəkildə müdaxilə edəcək.

Rəsmi Ottavanın regiondakı proseslərdə araqarışdırıcı rol oynaması bu kimi fikirlərin səsləndirilməsi ilə bitmir. Kanada həm də Avropa İttifaqının Ermənistandakı hərbləşdirilmiş missiyasına (EUMA) qoşulan yeganə qeyri-Avropa ölkəsidir. Yeri gəlmişkən, qeyd edək ki, bu missiyaya "töhfə verən" Avropa ölkələri Avstriya,



Cənubi Kipr, Çexiya, Danimarka, Estoniya, Fransa, Almaniya, Litva, Lüksemburq, Niderland, Polşa, Portuqaliya, Rumıniya və İsveçdir. Missiyanın regionda hansı rolu oynamasından əvvəlki yazılarımızda xeyli bəhs etdiyimiz üçün əlavə nə isə yazmağa ehtiyac duymuruq. Sadəcə, Kanadanın da bölgədə sülh və əmin-amanlığa xidmət etməyən prosesdə rol aldığını qeyd edirik.

Kanadanın 44 günlük Vətən müharibəsi dövründə atdığı xoşagəlməz addımlar da yaddan çıxmamalıdır. Ottava müharibə zamanı Azərbaycanın işğalçı Ermənistan ordusuna qarşı "Bayraktar TB2" pilotsuz uçuş aparatlarından (PUA) istifadə etməsinə görə 2020-ci ilin oktyabrında Türkiyəyə müdafiə sənayesi məhsullarının ixracına embarqo tətbiq etmişdi. Castin Trüdo hökuməti iddia edirdi ki, PUA-larda Kanada texnologiyasından istifadə edilib. 2021-ci ilin aprelində isə "Telemus Systems" şirkətinin ixrac icazəsi ləğv edilmişdi. Nəticədə Kanadanın həm "Telemus Systems", həm də "L3 Wescam" kimi şirkətləri milyonlarla dollar ziyana düşmüşdü. Bundan əlavə, Vətən müharibəsi zamanı Kanada xarici siyasət idarəsinə rəhbərlik etmiş Fransua-Filipp Şampan da Azərbaycanı ittiham edən bəyanatlar vermişdi.

Onu da bildirək ki, rəsmi Ottavanın ermənipərəst mövqeyi ölkəmizdə zaman-zaman etiraza səbəb olub. Bununla bağlı Prezident İlham Əliyev də fikirlərini açıqlayıb. Dövlətimizin başçısı 2021-ci il fevralın 1-də Azərbaycan Televiziyasında yayımlanan müsahibə zamanı Kanadanın koronavirus pandemiyası zamanı əhalisinin sayından dəfələrlə çox peyvənd sifariş etməsi məsələsindən danışarkən Ottavanın ermənipərəst mövqeyinə də münasibət bildirmişdi: "Bir misal da gətirə bilərəm. Bu yaxınlarda verilən məlumata görə, Kanada 154 milyon əhali üçün vaksinlər sifariş edib. Kanadanın əhalisi 38 milyondur. Yəni, bu ölkə, bu ölkənin hökuməti, hansı ki, Vətən müharibəsi zamanı sırf ermənipərəst mövqe sərgiləyirdi, işğalçıları dəstəkləyirdi, bizim haqq işimizə kölgə salmaq istəyirdi və hətta "Bayraktar" pilotsuz uçuş aparatlarının kameralarının Türkiyəyə ixrac edilməsi ilə bağlı əsassız embarqo qoymuşdu, həmin bu ermənipərəst ölkə 154 milyon vaksin sifariş edir, onun pulunu verir, öz ölkə əhalisinin sayı isə 38 milyondur. Yəni, dörd dəfə çox. Deməli, 120 milyona bu vaksin çatmayacaq. Onlar almayacaqlar, onlar xəstələnəcəklər, öləcəklər. Bunların vecinə deyil. Bunlar ancaq eqoist hisslərə qapılaraq öz maraqlarını təmin etmək istəyirlər. Belə olan halda hansı demokratiyadan söhbət gedə bilər? Hansı ədalətdən, mərhəmətdən, insan haqlarından söhbət gedə bilər? Deməli, kasıb ölkələrin insanlarının haqları tapdalanır, onların səhhəti, sağlamlığı risk altına düşür. Amma zəngin ölkələr öz maraqlarını artıqlaması ilə, o maraqların 4-5 mislini təmin etməklə, necə deyərlər, öz maraqlarını təmin edirlər".

Onu da qeyd edək ki, Kanada özü etnik separatizmdən əziyyət çəkən ölkədir. Kvebek əyalətində vaxtaşırı separatizm meyilləri baş qaldırır. Odur ki, Kanada rəhbərliyi onlardan min kilometrlərlə uzaqda yerləşən Cənubi Qafqazda aranı qarışdırmamalı, Ermənistan–Azərbaycan münasibətləri ilə bağlı qərəzli mövqe tutmamalı və bu yanaşmanın bumeranq effekti verərək, ümumilikdə, dünyada nizamı sıradan çıxara biləcəyini nəzərə almalıdır.

***Səxavət HƏMİD***
***XQ***



# Milli Məclisə seçkilərə 25 gün qaldı

SEÇKİYƏ GƏL, SƏS VER, SEÇİLMİŞLƏRDƏN OL!



## “Trenerlər üçün treninq”ə start verildi

### *Aşağı seçki komissiyaları üçün təlimlər keçirilir*

**Milli Məclisə növbədənkənar seçkilərlə əlaqədar Mərkəzi Seçki Komissiyasının (MSK) maarifləndirmə proqramı çərçivəsində ümumrespublika miqyaslı növbəti layihəyə – aşağı seçki komissiyalarının üzvləri üçün treninqlərə başlanılıb. MSK-nın nüfuzlu beynəlxalq təşkilatlarla sıx əməkdaşlığı şəraitində 22 il bundan əvvəl – 2002-ci ildə əsası qoyulan treninq layihəsi ilbəil təkmilləşdirilib, xüsusilə, 2008-ci ildən sonra yeni forma və məzmun əlavə olunmaqla daha da genişləndirilib.**






MSK-nın mühüm əhəmiyyət verdiyi və daim xüsusi diqqət yetirdiyi treninqlər, bir qayda olaraq, ölkəmizdə keçirilən bütün seçkilərdə təşkil edilməklə, dairə və məntəqə seçki komissiyaları üzvlərinin məlumatlılığının, bilik və bacarıqlarının, o cümlədən işgüzar və peşəkar vərdişlərinin yüksəldilməsində müstəsna rol oynayır.

Qarşıdakı seçkilərlə əlaqədar treninqlər, əsasən, ikimərhələli formatda keçiriləcək. Layihənin “Trenerlər üçün treninq” adlı birinci mərhələsinə avqustun 5-dən start verilib və müxtəlif əyani, metodiki, habelə yardımçı vəsaitlərdən istifadə olunmaqla, tam praktiki məşğələlər şəklində təşkil edilib. Beş gün fasiləsiz keçiriləcək bu treninqlərə ölkə üzrə 125 seçki dairəsi komissiyasının hər birindən iki təmsilçi olmaqla, ümumilikdə 250 yerli trener cəlb olunur. Treninqlər zamanı iştirakçılara seçki günü məntəqə seçki komissiyası üzvlərinin rol və vəzifələri, seçki məntəqələrinin səsverməyə hazırlanması, səsvermə prosesi, seçki günü müstəsna hallar, səslərin sayılması və səsvermənin nəticələri müəyyənləşdirilərək rəsmi protokolların doldurulması da daxil olmaqla, bütün prosedurlar barədə aydın və əhatəli məlumat verilir.

Seçki günü prosedurları, səsvermə hərəkətləri və qarşıya çıxa biləcək müstəsna hallar izah edilərkən praktiki məşğələlərə geniş yer verilir, müxtəlif məqamlar əyani şəkildə səhnələşdirilərək təqdim olunur və yaranan suallar yerindəcə cavablandırılır.

Treninq layihəsinin avqustun 12-dən başlanacaq ikinci mərhələsi isə məntəqə seçki komissiyalarının bütün üzvlərini əhatə etməklə, seçki dairələri üzrə məntəqə seçki komissiyalarının sayına uyğun olaraq, 3-10 gün davam edəcək. Bu mərhələnin də maksimum effektiv, praktiki və informativ olması üçün treninqlərin MSK-nın treninq qrupu tərəfindən hazırlanan cədvəl əsasında kiçik qruplarla – təqribən 40 nəfərədək aşağı seçki komissiyası üzvünün iştirakı ilə keçirilməsi nəzərdə tutulur.

Həm təlimlərdə istifadə etmələri, həm də seçki günü prosedurları ilə yaxından tanış olmaları məqsədilə treninqlərə cəlb edilən bütün iştirakçılar MSK-nın hazırladığı “Seçki günü üçün yaddaş” kitabçası, səsvermənin nəticələrinə dair protokol nümunəsi, habelə digər əyani və metodiki vəsaitlərlə təmin olunacaqlar.

Treninq layihəsi, ümumilikdə, 40 minə yaxın aşağı seçki komissiyası üzvünü əhatə edir.

*XQ*

## Namizədlərin təşviqat kampaniyası başlayır

### *Avqustun 9-da seçicilərlə görüşlərə start veriləcək*

**Mərkəzi Seçki Komissiyasının (MSK) “Milli Məclisə növbədənkənar seçkilərin keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin Təqvim Planı”nda öz əksini tapmış bəndlərdən biri də seçkiqabağı təşviqatın aparılması ilə bağlıdır.**



Planda qeyd olunduğu kimi, bu fəaliyyət qeydə alınmış namizədlər, onların səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri, namizədi qeydə alınmış siyasi partiyalar, siyasi partiyaların blokları, onların səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri tərəfindən həyata keçirilə bilər.

Seçki Məcəlləsinə əsasən, təşviqat kampaniyası səsvermə gününə 23 gün qalmış başlanır və səsvermənin başlanmasına 24 saat qalmış dayandırılır. Növbədənkənar parlament seçkiləri ilə əlaqədar seçkiqabağı təşviqatın aparılmasına avqustun 9-dan başlanılacaq, proses avqustun 31-i səhər saat 08:00-a kimi davam edəcək.

*XQ*

## Vətəndaşların seçki hüququ təminatı

**Şəkidə Milli Məclisə növbədənkənar seçkilərlə əlaqədar Mərkəzi Seçki Komissiyasının və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (ombudsman) Aparatının birgə təşkilatçılığı ilə “Vətəndaşların seçki hüququnun təmini” mövzusunda növbəti maarifləndirici tədbiri keçirilib.**






Məlumata görə, tədbirdə MSK üzvü Şaitdin Əliyev və Ombudsman Aparatının rəhbəri Aydın Səfixanlı çıxış ediblər.

Bildirilib ki, MSK Milli Məclisə seçkilər ərəfəsində maarifləndirmə tədbirlərinə xüsusi diqqət ayırır. Seçki hüququnun həyata keçirilməsində ictimaiyyətin, seçicilərin, bütün seçki subyektlərinin maarifləndirilməsi baxımından belə seminar-müşavirələrin xüsusi əhəmiyyəti vurğulanıb.

Toplantıda MSK Katibliyinin əməkdaşı Samir Tağıyev “Seçki hüququnun səmərəli təminatına konstitusional və qanunvericilik imkanları”, Ombudsman Aparatının rəhbəri Aydın Səfixanlı “Müşahidəçilik institutunun əhəmiyyəti və Ombudsmanın bu prosesdə rolu” mövzusunda təqdimatla çıxış ediblər.

Tədbirin sonunda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

*XQ*

## Mərkəzi Seçki Komissiyasının növbəti iclası



**Avqustun 5-də Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib.**

Əvvəlcə Komissiyanın avqustun 3-də keçirilən iclasının protokolu təsdiq edilib.

Sonra 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə beynəlxalq müşahidə missiyası təmsilçilərinin və maraqlı subyektin özünün də bilavasitə iştirakı ilə Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciətə baxılıb. Komissiya üzvlərinin geniş müzakirəsindən sonra müraciətin təmin olunmasına və namizədliyin imtinası ilə bağlı müvafiq dairə seçki komissiyasının qərarının ləğv edilərək, şəxsin Milli Məclisə seçkilərdə namizədliyinin qeydə alınmasına qərar verilib.

Media mənsubları tərəfindən operativ şəkildə işıqlandırılan iclasda, həmçinin Milli Məclisə seçkilərlə əlaqədar ardıcıl, sistemli və intensiv davam edən ümumrespublika miqyaslı maarifləndirmə tədbirləri barədə ətraflı məlumat verilib, proseslərin gedişinə dair statistik göstəricilər diqqətə çatdırılıb və cari məsələlərə baxılıb.

*XQ*

## Seçki xəbərləri

### Namizədlərin sayı 950-ə çatıb

Bu rəqəm MSK-nın dünən keçirilən iclasında səsləndirilib. Məlumatda deyilir ki, ümumilikdə 1508 nəfər namizədlik üçün müraciət edib. Onlardan 1462 nəfərin namizədliyinin irəli sürülməsi təsdiqlənib, 1420 nəfərə imza vərəqi verilib. Sonradan 1197 nəfər imza vərəqələrini geri qaytarıb.

### Təşviqat üçün 5 min 155 ünvan

Mərkəzi Seçki Komissiyasının (MSK) iclasında bildirilib ki, bu həftədən növbədənkənar parlament seçkiləri ilə əlaqədar seçkiqabağı təşviqat kampaniyasına başlanılacaq. Qeyd olunub ki, təşviqat üçün 5 155 yer ayrılıb. Onların çoxu açıq havadadır. Qapalı məkanlar Azərbaycanın bütün bölgələrində təsis edilib.



### Heç bir müşahidəçiyə rədd cavabı verilməyib

Parlament seçkiləri ilə əlaqədar qeydə alınan yerli və beynəlxalq müşahidəçilərin sayı açıqlanıb. Milli Məclisə seçkilərlə əlaqədar 27 ölkə və doqquz qurumdan müraciət daxil olub. MSK-dan bildirilib ki, seçkilərlə əlaqədar 18 467 yerli müşahidəçi qeydiyyatdan keçib: “Onların 938 nəfəri siyasi partiyalar tərəfindən irəli sürülüb. 2 646 nəfər isə 11 QHT-ni təmsil edir. Müraciət edən heç bir müşahidəçiyə rədd cavabı verilməyib”.

### Azad edilən ərazilərdə 44 seçki məntəqəsi yaradılıb

Bu barədə MSK-nın iclasında məlumat verilib. MSK sədri Məzahir Pənahov qeyd edib ki, işğaldan azad olunmuş torpaqlardakı seçki məntəqələrinin sayı artırılaraq 55-ə çatdırılacaq. O, həmçinin daimi və müvəqqəti seçki məntəqələrinin hamısının səsvermə gününə tam hazır olacağını bildirib.




*Səhifəni hazırladı:*
***İmran BƏDİRXANLI***
*XQ*

# Müasir mərhələdə dövlət–elm münasibətləri

**I MƏQALƏ**

**Azərbaycan xalqı yüksək elmə, biliyə, savada malik olan xalqdır.**

**Heydər ƏLİYEV,**
**Ümummilli lider**

## Dövlət, cəmiyyət və elm

Hər bir dövlətin özünün elmə münasibəti tarixi vardır. Dövlətçilik ənənəsi ilə yanaşı, burada dövlətin xüsusi olaraq cəmiyyətə baxışları ciddi təsiredici rol oynayır. Yəni böyük mənada dövlət–elm münasibətləri dövlət–cəmiyyət münasibətlərinin tərkib hissəsi kimi təsəvvür edilə bilər. Bu kontekstdə müasir mərhələdə (XX əsrin 70-ci illərindən başlayaraq, bu günə qədər olan müddəti nəzərdə tuturuq) Azərbaycanda dövlət–elm münasibətlərinə xüsusi əhəmiyyət verilmişdir.

Ulu öndər Heydər Əliyev 1969-cu ildə Azərbaycana rəhbər gələndən sonra dövlət–elm münasibətləri sistemli, məqsədyönlü və elmin ölkəyə xidmət etməsi istiqamətini almışdır. Həmin mərhələdə Heydər Əliyevin elmlə bağlı atdığı addımlara konkret faktların işığında baxdıqda dövlətçilik və Azərbaycan cəmiyyətinin intellektual inkişafı baxımından çox maraqlı mənzərə görürük. Məsələnin bu aspekti akademik İsa Həbibbəylinin "Heydər Əliyev və Azərbaycan Milli Elmlər Akademiyası" (2023-cü il) adlı məqaləsində elmi şəkildə geniş araşdırılmışdır. Burada həmin məqalədə yer almış tezislərdən də istifadə olunmuşdur.

Heydər Əliyevin elmə, təhsilə və ümumiyyətlə, ziyalılığa münasibəti məqalədə bir-biri ilə qarşılıqlı əlaqədə təqdim olunmuşdur. Ulu Öndərin yanaşmasının təməlində Azərbaycanda tarixən elm və təhsilə yüksək qiymət verildiyi və dövləti fəaliyyətdə alimlərin aktiv iştirakının təmin edildiyi mövqeyi dayanır. Bu yanaşma müasir mərhələdə Azərbaycanda dövlət–elm münasibətlərinin bazasını və ana xəttini təşkil edir.

Həmin fikri Prezident İlham Əliyev AMEA-nın 60 illik yubileyindəki nitqində çox yaxşı ifadə etmişdir. Azərbaycan Prezidenti demişdir ki, Heydər Əliyevin ilk görüşünü məhz AMEA-da ziyalılarla keçirməsi rəmzi xarakter daşıyırdı. Çünki Heydər Əliyev Azərbaycan alimlərinin dünyagörüşünə, mövqeyinə, hərəkətlərinə, fəaliyyətlərinə ölkənin inkişaf dinamikasını xeyli müəyyən edən əsas faktor kimi yanaşırdı. Buna görə də "ölkənin tərəqqisini elm müəyyən edir" tezisi Ulu öndər üçün ciddi əhəmiyyət kəsb edirdi.

Heydər Əliyevin sovet dönəmində müəyyən etdiyi dövlət–elm münasibətlərinin məzmunu və məqsədləri müstəqillik mərhələsində məşhur olan iki strateji tezisin təməlini təşkil edir. Həmin tezisləri Ulu öndər belə formalaşdırmışdır: Hər hansı bir ölkənin XXI əsrdə tərəqqisini iki mühüm faktor müəyyən edəcəkdir: "Yüksək elmi potensial" və "elmtutumlu yüksək texnologiya"! XXI əsrin reallıqları Heydər Əliyevin dövlət–elm münasibətlərinin təməlində gördüyü bu tezislərin səmərəliliyini tam sübut etməkdədir.

Bütün bunlara görə, bizim XX əsrin 70–80-ci illərində Heydər Əliyevin Azərbaycan elmi, ziyalıları və ayrıca AMEA ilə bağlı həyata keçirdiyi tədbirləri araşdırmağımız dövlət–elm münasibətlərinin təkamül dinamikasını izləməklə yanaşı, XXI əsrdə uğurlu və kreativ cəmiyyət quruculuğunun mühüm bir aspekti ilə bağlı düşüncələri də aktuallaşdırmağa müəyyən dərəcədə yardımçı olardı.

## Heydər Əliyevin dövlət–elm münasibətləri konsepti

Ulu öndər 1969-cu ildən başlayaraq Azərbaycanda dövlət-elm münasibətlərini ideyadan konsept səviyyəsinə yüksəltdi. İdeya kimi həmin münasibətlərin əsas məzmunu və mahiyyətini "elm cəmiyyətin inkişafında və dövlət idarəetməsində aparıcı rol oynamalıdır" tezisi təşkil edirdi. Bu ideyanı SSRİ dönəmində dərindən əxz edib həyata keçirmək dərin bilik və böyük idarəetmə məharəti ilə yanaşı, dövrün manеələrini aşa biləcək vətənpərvərlik mövqeyi də tələb edirdi. Məsələnin bu tərəfini izah etməyə çalışaq.

Məsələ ondan ibarət idi ki, sovet dönəmində dövlət strukturları içərisində Azərbaycana qarşı dost olmayan münasibət göstərən qüvvələr vardı. Onların təsir imkanları da geniş idi. Geniş anlamda məqsədləri Azərbaycanı bir respublika, mədəniyyət məkanı, iqtisadi infrastruktur və ölkə olaraq parçalamaqdan ibarət olmuşdur. Bunu təsdiq edən faktlar müxtəlif ədədbiyyatlarda göstərilmişdir. Azərbaycanı gözləyən bu təhlükəyə qarşı müqavimət göstərmək olduqca çətin məsələ idi. Çünki öncədən respublikanın müxtəlif idarəetmə orqanlarına yad, anti-Azərbaycan xarakterli elementləri yerləşdirmişdilər. Xüsusilə təhsil, elm, təhlükəsizlik və digər mühüm sferalarda mövqeyi Azərbaycana qarşı olan kadrlar üstünlük təşkil edirdilər. Belə çıxır ki, eyni zamanda, iki istiqamətdə mübarizə aparmağa ehtiyac yaranmışdı. Birincisi, mühüm postlardan yad kadrları təmizləmək. İkincisi, Azərbaycan SSR-də idarəetmədə milliliyə əsaslananların üstünlüyünü təmin etmək.

Ancaq bu məqsədlərə çatmaq üçün elm, təhsil və idarəetmədə həmin dövr üçün inqilabi dəyişikliklərə nail olmaq gərək idi. Yəni həm milli kadrları hazırlamaq, həm də yad elementlərdən dövlət və ictimai strukturları təmizləməyə ehtiyac vardı. Buna görə də Heydər Əliyev Azərbaycan KP MK-nını birinci katibi seçilənə qədər müxtəlif səviyyələrdə azərbaycanlı kadrların SSRİ-nin müxtəlif ali məktəblərində təhsil almağa göndərilməsi və respublikanın bir sıra bölgələrində erməni–rus–yəhudi kadrları yerlilərlə əvəz etmək istiqamətində müəyyən addımlar atdı. Paralel olaraq, imkanı daxilində milli düşüncəli insanları qorudu.

Bütün bu tendensiyalar Ulu öndərin Azərbaycan SSR-ə rəhbər gələndən sonra ölkə miqyasında sistemli və davamlı xarakter aldı. Aydın görünürdü ki, prosesi strateji olaraq uğurlu aparmaq üçün möhkəm elmi təməli olan sistem yaratmaq zərurəti qarşıda dururdu. Bunun üçün, fikrimizcə, strateji əhəmiyyəti müstəqillik mərhələsində azalmayan iki mühüm qərar qəbul etdi. Birincisi, Azərbaycanda dövləti və cəmiyyətini inkişaf etdirmək üçün mütləq ciddi elmi araşdırmalara əsaslanmaq lazım idi. İkincisi, bu prosesdə 1945-ci ildə yaradılmış Azərbaycan Elmlər Akademiyasına və o dövrdə mövcud olan universitetlərə önəm verilməli idi. Bununla da həmin dövrdə indiki AMEA dövlət–elm münasibətlərinin həm substantiv, həm də funksional aspektlərdə mərkəzinə gətirildi.



Heydər Əliyev konseptual olaraq və AMEA-nın üzərinə həm böyük məsuliyyət qoydu, həm də onu inkişaf etdirdi. Bu inkişaf strukturlaşmanı təkmilləşdirmək, elmi fəaliyyəti genişləndirməklə yanaşı, təşkilatın Azərbaycan cəmiyyətində yüksək status almasını da əhatə edirdi.

Deməli, Heydər Əliyev qısa bir müddətdə dövlət və cəmiyyətdə elmin aparıcı rol oynaması məsələsini ideyadan konsept səviyyəsinə yüksəltdi. Bu, o deməkdir ki, artıq dövlət-elm münasibətlərinin qurulması və inkişafının konkret istiqamətləri, həyata keçirilmə və nəticəverici mexanizmləri hazırlanmışdı. Heydər Əliyev həmin konsept çərçivəsində ardıcıl olaraq elm siyasətini həyata keçirdi və indiki AMEA-ya bu prosesdə ayrıca yer verdi. Faktlara müraciət edək.

## Elmi fəaliyyətin təşkili və təşviqi

Heydər Əliyev 1969-cu ildə fəaliyyətə başlayan kimi, Azərbaycan SSR-in inkişafının birbaşa elmin inkişafı ilə bağlı olduğunu ifadə etdi. 1969-cu il noyabrın 2-də Azərbaycan Dövlət Universitetinin 50 illik yubileyində Heydər Əliyevin Azərbaycan dilində çıxışı elm və təhsilin milliliyinə xüsusi önəm verdiyinin ilk mesajlarından idi. Həmin çıxışda əsas fikir ondan ibarət idi ki, Azərbaycanda iqtisadi-mədəni geriliyin aradan qaldırılması zərurətdir. Bunun başlıca mexanizmlərindən biri də elmin bütün sahələrə daha fəal və geniş miqyasda təsir göstərməsi olmalıdır. Bununla ölkənin inkişafında elmtutumluluq sisteminin fəaliyyəti mexanizmlərinə oturduldu. Konkret olaraq, "...Respublikanı mövcud geriləkdən xilas etmək və ölkəni yeni inkişaf mərhələsinə çatdırmaq məqsədilə elm sahəsində kök salmış ətaləti aradan qaldırmaq istiqamətində kompleks tədbirlər həyata" (İsa Həbibbəyli) keçirmək istiqamətində addımlar atıldı.

Həmin sırada Ulu öndər indiki AMEA-nın fəaliyyətini də struktur və funksional aspektlərdə yenidən qurmağa başladı. Məsələn, 1970-ci ildə Elmlər Akademiyasının 25 illik yubileyinə həsr olunmuş tədbirdə Heydər Əliyev üç məsələni önə çəkmişdir. Birincisi, ölkənin təbii sərvətlərinin öyrənilməsində EA-nın rolunu daha da artırmaq. İkincisi, alınan elmi nəticələrdən daha səmərəli istifadə etmək. Üçüncüsü, neft, kimya sənayesi və kənd təsərrüfatının inkişafı ilə bağlı məsələlərin həll edilməsi üzrə tədqiqatların aparılmasını daha da genişləndirmək.

Həmin dövr üçün vurğulanan istiqamətlər xüsusi dövləti əhəmiyyət kəsb edirdi. Onlar birbaşa Azərbaycanın sosial, iqtisadi və elmi inkişafı üçün çox vacib idi. Bu addım həm də uzun illər Azərbaycan elmində kök salmış ətalətə (və ya məqsədli şəkildə həmin vəziyyət yaradılmışdı) qarşı ilk ciddi addımlardan biri idi. Bunlarla yanaşı, Ulu öndərin dəfələrlə ifadə etdiyi "Elmlər Akademiyası Azərbaycan elminin inkişaf etməsində aparıcı rol oynamalıdır" tezisinin reallaşma əlamətlərindən biri idi. Çünki Heydər Əliyev qarşıya qoyduğu elmi məqsədlərə çatmaq üçün Elmlər Akademiyasında yeni elmi strukturlar da yaradırdı.

Misal üçün, Heydər Əliyev Elmlər Akademiyasının Rəyasət Heyətində yeni iki bölmə yaratmaq haqqında tapşırıq vermişdi. 1970-ci il iyunun 24-də Aşqarlar Kimyası İnstitutunun maddi-texniki bazasının yaxşılaşdırılmasına dair tədbirlərin müəyyənləşdirilməsi haqqında qərar qəbul edildi. 1972-ci il iyunun 20-də "Akademiyanın Neft-Kimya Prosesləri İnstitutunun Sumqayıt filialının laboratoriyalarının bazasında Ağır Üzvü Sintez Kompleks Elmi Tədqiqat və Layihələndirmə İnstitutunun yaradılması haqqında" qərar qəbul olundu.

Bu prosesin keçici deyil davamlı və öncədən düşünülmüş sistem üzrə aparıldığını ulu öndər Heydər Əliyev Azərbaycan Elmlər Akademiyasında həyata keçirdiyi sonrakı struktur və fəaliyyət dəyişikliyindən aydın görmək olur. Belə ki, neft–kimya sahəsi ilə yanaşı, bütövlükdə, iqtisad elmi sferasına lazım olan islahatların aparılması istiqamətində də tədbirlər həyata keçirməyə başladı. Bu məqsədlə Elmlər Akademiyasının tabeliyində olan İqtisadiyyat İnstitutunun fəaliyyəti əsaslı şəkildə yoxlanıldı və Mərkəzi Komitənin bürosunda geniş müzakirə edildi. Bu əsasda konkret qərarlar qəbul edildi. Həmin qərarlarda elmi müəssisələrin işini dövrün tələbləri səviyyəsinə yüksəltmək əksini tapmışdı.

Bununla Heydər Əliyev iqtisadiyyat institutları ilə bağlı iki mühüm vəzifəni gündəmə gətirmişdi. Onlardan biri bu sahədə aparılan tədqiqatların sistemli, məqsədli və planlı şəkildə salınması ilə bağlıdır. İkincisi, iqtisadiyyatdakı perspektiv istiqamətlər elmi əsaslandırılmalı və proqnozlaşdırılmalıdır. Alınan elmi nəticələr istehsal imkanlarının səmərəli istifadəsi və yerləşdirilməsi üzrə konkret təkliflərə əhatə etməlidir.

Vurğuladığımız iki istiqamət üzrə Heydər Əliyevin həyata keçirdiyi elm siyasəti, bütövlükdə, dövlət–elm münasibətlərinin ümumi məğzini ifadə edir. Heydər Əliyevin həmin istiqamətdə həyata keçirdiyi proqramları göstərir ki, bununla Ulu öndər dövlət–elm münasibətlərində keyfiyyət dəyişikliyinə nail olmuşdur və proses konsepsiya səviyyəsinə yüksəlmişdir. Dövlət–elm münasibətlərinin konsepsiyasında isə azərbaycançılıq əsas yer tutur.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

---

# Qızılın "rekord" yürüşü

## *Davamlı artım Azərbaycanın maliyyə sisteminə necə təsir edir?*

**XXI əsr həddindən artıq iqtisadi və sosial-siyasi təlatüm epizodları ilə diqqət çəkir. Bu qeyri-müəyyənlikdə, investorlar təhlükəsizlik üçün qiymətli metala üstünlük verirlər. Bu da qızılın qiymət artımına səbəb olur. Avqustun 2-də onun 1 unsiyası 2 min 500 dollara satılıb.**

Qızılın bahalaşması isə geosiyasi gərginliyin davam etməsi, eləcə də mərkəzi banklar tərəfindən qiymətli metal alışı ilə bağlıdır. "PSB"nin baş analitiki Aleksey Qolovinov hesab edir ki, son dövrlərdə mərkəzi banklar qızıla daha çox sərmayə yatıraraq ehtiyatlarını artırırlar. Ümumdünya Qızıl Şurasının (WGC) məlumatına görə, mərkəzi bankların qızıl alması hazırda qiymətli metala qlobal tələbatın təxminən 1/5-ni təşkil edir. 2024-cü ildə qızıl alışında lider Türkiyə Mərkəzi Bankıdır, 2-ci yerdə Çin Xalq Bankı, 3-cü yerdə isə Hindistan Ehtiyat Bankı gəlir. Onlar bu yolla Qərbdən maliyyə müstəqilliyini artırmaq istəyirlər.

Hazırda dünyada geosiyasi vəziyyət də sabit deyil. Xüsusilə Qərb və Rusiya arasında gərginlik, eyni zamanda, Yaxın Şərqdəki vəziyyət, İranla digər dövlətlərin münasibətləri pisləşir. Siyasi gərginlik, eləcə də qlobal valyuta bazarında dolların zəifləməsi birbaşa qızılın qiymətinə təsir edir. İnvestorlar qızılın da daxil olduğu etibarlı aktivlərə maraq göstərirlər. "BitRiver" şirkətinin maliyyə analitiki Vladislav Antonovun sözlərinə görə, qiymətli metalın unsiyasının 2026-cı ilə qədər 2 min 800 dollaradək artım potensialı var: "Qızıla investisiya qoymaq qərarı investorun fərdi vəziyyətindən asılıdır. Bir tərəfdən əksər ekspertlər 2024-cü ilin ikinci yarısında qızılın qiymətinin daha da artacağını





proqnozlaşdırırlar. Digər tərəfdən, qiymətlər artıq tarixi yüksək həddədir. Mən qızılı diversifikasiya edilmiş investisiya portfelinin bir hissəsi kimi nəzərdən keçirməyi, lakin bütün pulunuzu ona yatırmamağı tövsiyə edərdim".

Mütəxəssis onu da bildirib ki, qızıla investisiya qoymazdan əvvəl seçilmiş investisiya alətinin likvidliyinə, cari makroiqtisadi və geosiyasi tendensiyalara, həmçinin optimal investisiya metodunun seçilməsinə diqqət yetirilməlidir. "İlin əvvəlindən qızıl 18,39 faiz bahalaşıb. Aprel ayından etibarən qiymətlər çox kəskin şəkildə qalxdı. Hazırda isə qızılın unsiyası 2 min 500 dollara satılır. Sabah ola bilər ki, qiymət fərqli istiqamətdə dəyişsin. Bütün bu amillər nəzərə alınmalı və qızıla investisiya yatırmaq üçün ən uyğun variant seçilməlidir. 2026-cı ilə qədər unsiyanın 2 min 800 dollara qədər artım potensialı hələ də var. Amma 12 faiz gəlirlik investisiya üçün kifayət deyil. İndi əmanətlərin, təxminən, 20 faiz gəlirliliyinə zəmanət verilir".

Bunların fonunda isə qızıla investisiya tələbi artır. Onun qiymət artımı Azərbaycana necə təsir edir? Bu barədə iqtisadçı Pərviz Heydərov deyib ki, qızılın bahalaşması bizə iki istiqamətdə səmərə gətirir. "Birincisi, valyuta ehtiyatlarımızın bir hissəsi qızıldan ibarətdir. Odur ki, təhlükə barədə, ümumiyyətlə, danışmağa dəyməz. Dövlət Neft Fondunun ehtiyatlarının, təxminən, 15 faizə qədəri qızılla yerləşdirilib".

Hazırda Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) qızıla yatırılan investisiyanın həcmini ötən ilə nisbətən 3,3 faiz artırıb. ARDNF-in 2024-cü ilin I yarısı üzrə investisiya fəaliyyətinin yekunlarına dair hesabatında bildirilir ki, ABŞ dolları portfelinin 8 milyard 574,6 milyon dollarlıq hissəsini (14,8 faiz) qızıl investisiyaları təşkil edir. Fondun qızıl ehtiyatı cari il iyunun 30-u tarixinə 114,9 ton təşkil edib.

Mərkəzi Bankın da qızıl ehtiyatı var. 2024-cü ilin iyul ayında Azərbaycan Mərkəzi Bankının rəsmi valyuta ehtiyatları 28,1 milyon dollar artaraq 31 iyul 2024-cü il tarixində 11 milyard 765,7 milyon dollara çatıb. 2024-cü ilin 7 ayı ərzində isə (yanvar-iyul) Mərkəzi Bankın rəsmi valyuta ehtiyatları 152,7 milyon dollar artıb. Beləliklə, sözügedən metalın dəyəri qalxdıqda və yaxud endikdə valyuta ehtiyatlarının ümumi həcminə təsir edir.

İkincisi isə, Azərbaycan qızıl ixrac edən ölkədir. Regionda yeganə ölkədir ki, bu qiymətli metal növünü hasil və ixrac edir. Təkcə ötən il ərzində yerli və xarici bazarlarda ümumən 68,1 min unsiya qızıl və 119,8 min unsiya gümüş satıb. Bu da, 2022-ci illə müqayisədə bilavasitə qızıl satışı üzrə 7 faiz artım deməkdir. Qeyd olunan ümumi satış həcmindən qızıl üzrə 62,1 min, gümüş üzrə isə 90,8 min unsiya xaricdə realizə edilib.

Ümumiyyətlə, 2023-cü il ərzində xarici və yerli bazarlarda qızıl və gümüş satışı nəticəsində 232,8 milyon manat məbləğində gəlir əldə edilib ki, bunun 210,1 milyon manatını ixrac, 22,7 milyon manatını isə daxili satış gəlirləri təşkil edib.

Cari ilin I rübü ərzində isə 6,6 min unsiya qızıl, 23,7 min unsiya gümüşün yerli və beynəlxalq bazarlarda satışı həyata keçirilib və nəticədə ölkə iqtisadiyyatına 25,2 milyon manat vəsait cəlb edilib.

Xatırladaq ki, qiymətli metalların yerli və xarici bazarlarda satışı (2017-ci ildən) nəticəsində əldə olunmuş ümumi gəlir 1 milyard 213 milyon 911 min manata çatıb. Vəsaitin 1 milyard 158 milyon 829 min manatını ixrac gəlirləri, 55 milyon 82 min manatını isə daxili bazar satışlarından əldə edilmiş gəlirlər formalaşdırıb.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# AZPROMO – xarici aləmə açılan “vahid pəncərə”

**İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) məlumatına əsasən, 2023-cü ildə bu qurumun gəlirləri 6,158 milyon manat, xərcləri isə 6,187 milyon manat (2022-ci illə müqayisədə müvafiq olaraq 59,8 faiz və 2,4 dəfə çox) olub.**

Qeyd edək ki, AZPROMO 2003-cü ildən fəaliyyət göstərən İxracın və İnvestisiyaların Təşviqi Fondunun bazasında 2021-ci ildə yaradılıb. Agentliyin missiyası respublikamızda qeyri-neft sektorunun inkişafını gerçəkləşdirmək, istehsal olunan məhsulların xarici bazarlarda təşviqi ilə bağlı dövlət başçısının qarşıya qoyduğu hədəflərə nail olmaq üçün xarici ölkələrdə müxtəlif beynəlxalq tədbirlər təşkil etmək, xarici alıcıları Azərbaycan məhsulları barədə məlumatlandırmaq və yerli şirkətlərlə əlaqələndirmək, həmçinin Azərbaycan investisiya mühiti haqqında ətraflı məlumat toplamaq istəyən və investisiya yatırmaqda maraqlı olan xarici şirkətlərə “vahid pəncərə” funksiyası əsasında xidmət göstərmək və dəstək vermək olub.

AZPROMO tərəfindən ötən müddətdə respublikamızın gerçəkləşdirdiyi ticarət prosesində nəzərə çarpan mövcud çətinliklərin aradan qaldırılması istiqamətində səmərəli tədbirlər həyata keçirilib və bu müstəvidə dövlət-özəl tərəfdaşlığına mühüm önəm verilib.

Agentlik fəaliyyəti dövründə ölkəmizin idxal-ixrac əməliyyatlarının həyata keçirilməsində fəal iştirak edib. AZPROMO-nun dəstəyi ilə respublikamızda dövlət qurumlarının rəqəmsallaşdırılması üçün nəzərdə tutulan “Rəqəmsal körpü” layihəsinin icrası uğurla başa çatıb. Bundan əlavə, kiçik və orta biznes (KOB) strukturlarının rəqəmsallaşdırılması da diqqətdə saxlanılıb.

İndiyədək agentliyin fəaliyyətində ticarətin asanlaşdırılması məqsədilə müxtəlif layihələr həyata keçirilib. Bu məsələyə xüsusi əhəmiyyət verilməsi təsadüfi olmayıb. Çünki BMT-nin Ticarət və İnkişaf üzrə Konfransının 2006- ci ildə apardığı araşdırmaya əsasən, bir ticari prosedurun 30-a qədər tərəfi, 40-a yaxın sənədi və 200-ə qədər fərqli məlumat bazası var. Bütün bu məlumatların 70 faizini ən azı bir dəfə yoxlamaq tələb olunur. Bu isə artıq vaxt itkisidir. Dünya Bankının 2010-ci ildə Effektiv Loqistika İndeksi sənədinə görə, beynəlxalq səviyyədə ticarəti asanlaşdıraraq onun həcmini yarıbayarı artırmaqla iqtisadiyyatda 377 milyard dollar (9,7 faiz) məbləğində böyümə əldə etmək mümkündür. Eyni sənəddə qeyd olunan başqa bir məlumatda bildirilir ki, sadəcə gömrük prosedurlarının asanlaşdırılması dünya miqyasında iqtisadiyyatda 33 milyard dollarlıq böyüməni şərtləndirir.

Son illərdə respublikamızın qeyri-neft ixracı sahəsi coğrafi şaxələnmə ilə yanaşı, məhsul çeşidlərinin çoxalması ilə diqqət çəkib. Beynəlxalq sərgi və ticarət yarmarkalarında ölkə sahibkarlarının iştirakına və “Made in Azerbaijan” brendinin xaricdə tanıdılmasına dəstək tədbirlərİ də ixracın artımını stimullaşdırıb.

Hazırda xarici ölkələrdə Azərbaycan məhsullarının və mətbəxinin təqdim olunduğu 10-dan çox ticarət evi fəaliyyət göstərir. Respublikamızın iqtisadi-ticarət əlaqələrini genişləndirmək, bu sahədə maraqlarını qorumaq və təmsil etmək məqsədi daşıyan ticarət nümayəndəliklərinin fəaliyyəti də getdikcə genişlənir.

Azərbaycanın iqtisadi-ticarət əlaqələrindən söz düşmüşkən, qeyd edək ki, ölkəmizin hüquqi və fiziki şəxsləri tərəfindən cari ilin 5 ayı ərzində dünyanın 164 ölkəsi ilə ticarət əməliyyatları həyata keçirilib, 104 ölkəyə məhsul ixrac olunub, 154 ölkədən isə idxal edilib.

Dövlət Statistika Komitəsindən bildirilib ki, gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla, 2024-cü ilin yanvar-may aylarında ölkənin xarici ticarət dövriyyəsi 18 milyard 225,4 milyon ABŞ dolları təşkil edib. Ticarət dövriyyəsinin 10924,7 milyon dollarını və ya 59,9 faizini ölkədən ixrac olunmuş məhsulların, 7300,7 milyon dollarını (40,1 faizini) isə idxal məhsullarının dəyəri təşkil edib, nəticədə 3624,0 milyon dollar məbləğində müsbət saldo yaranıb.



2024-cü ilin yanvar-may aylarında qeyri neft-qaz məhsullarının ixracı əvvəlki ilin eyni dövrü ilə müqayisədə faktiki qiymətlərlə 14 faiz, real ifadədə 22,5 faiz azalaraq 1260,9 milyon dollar təşkil edib. Dövlət Gömrük Komitəsindən daxil olmuş məlumatlara əsasən, ölkənin xarici ticarət dövriyyəsində ilk beşliyi İtaliya (23,9 faiz), Türkiyə (13,9 faiz), Rusiya (9,4 faiz), Çin (7,2 faiz) və İsrail (5,0 faiz) tamamlayır. İxracda isə 38 faizlə İtaliya, 14,8 faizlə Türkiyə, 8,2 faizlə İsrail, 5,1 faizlə Hindistan, 3,9 faizlə Rusiya yer alıb.

Ölkəyə idxal olunmuş məhsulların ümumi dəyərinin 18,1 faizi Çin, 17,8 faizi Rusiya, 12,6 faizi Türkiyə, 6,1 faizi Avstraliya, 4,4 faizi isə Almaniya ilə aparılmış idxal əməliyyatlarının payına düşüb və bu ölkələr ilk beşlikdə qərarlaşıb.

Son illər ölkəmizin ixrac potensialının gücləndirilməsi istiqamətində bir sıra mühüm layihələrin həyata keçirilməsi nəticəsində özəl bölmə sürətli inkişaf mərhələsinə daxil olub, sahibkarlığın hüquqi bazası formalaşdırılıb, iqtisadi sərbəstlik diqqət mərkəzində saxlanılıb. Gömrük prosedurlarının sadələşdirilməsi, ticarət maneələrinin azaldılması və tranzit daşımaların optimallaşdırılması kimi mühüm tədbirlər də gerçəkləşdirilib. Eyni zamanda, yüksək keyfiyyətli məhsul istehsalı məqsədilə respublikamıza ən müasir texnika və avadanlıqlar gətirilib. Müəssisələrdə texnoloji proses günün tələbləri səviyyəsində tamamilə yenidən qurulub.

Respublikada Ümumdünya Ticarət Təşkilatının prinsiplərinə ciddi əməl olunması, daxili bazarın qorunması, haqsız rəqabətə qarşı mübarizənin gücləndirilməsi və rəqabətin inkişafı ilə bağlı tədbirlər həyata keçirilməsi, eyni zamanda, istehlak mallarının keyfiyyətinə və təhlükəsizliyinə nəzarətin gücləndirilməsi sahibkarların, eləcə də istehlakçıların mövqelərini gücləndirib. Şübhəsiz ki, standartlaşdırma və metrologiya kimi mühüm sahələrinin beynəlxalq tələblərə uyğunlaşdırılması da milli istehsalçıların xarici bazarlara çıxışını stimullaşdırıb.

Azərbaycanın ixrac potensialının gücləndirilməsindən danışarkən bir məqamı da xatırladaq. Qeyd edək ki, biznes ekomühitinin yaxşılaşdırılmasının mühüm qolu iqtisadiyyatın gömrük-vergi tənzimlənməsi sisteminin təkmilləşdirilməsidir. Bu baxımdan ölkəmizdə investisiya mühitinin cəlbediciliyinin artırılması üçün müəyyən layihələrin gerçəkləşdirilməsi ümumi prosesə təkan verir. Bu gün yerli istehsalatda istifadə olunan 300-ə yaxın aralıq malın idxal rüsumundan azad edilməsi yerli istehsalın maya dəyərinin azaldılmasına, yerli malların xarici bazarlarda rəqabət qabiliyyətinin artırılmasına müsbət təsir göstərməsi də deyilən fikrin bariz ifadəsidir.

Hazırda da bu proses davam edir. Belə ki, ixracda hesablaşma qaydalarının təkmilləşdirilməsi, yerli istehsalda xammal ehtiyacının ödənilməsi, əhalinin idxaldan asılı olan bir sıra zəruri istehlak malları ilə etibarlı təminatı məqsədilə tətbiq olunan tarif tədbirləri, o cümlədən güzəşt müddətlərinin uzadılması istiqamətində qanunvericilik layihələri hazırlanaraq aidiyyəti dövlət orqanları ilə müzakirə olunur.

Yeri gəlmişkən, ölkədə ixrac potensialının gücləndirilməsi Prezident İlham Əliyevin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilən “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də də qarşıya mühüm vəzifə kimi qoyulub. Belə bir vəzifənin gerçəkləşdirilməsinin əsas şərti kimi davamlı və yüksək iqtisadi artıma nail olunması göstərilib.

Buna görə də Milli Prioritetlərə əsaslanaraq hazırda milli iqtisadiyyat şaxələndirilir, mallar və xidmətlər üzrə ixrac potensialının tam reallaşdırılması üçün qeyri-neft iqtisadiyyatının inkişafı diqqət mərkəzində saxlanılır. İqtisadi artımın qabaqcıl və effektiv özəl təşəbbüslərə söykənməsi, dövlət və özəl əməkdaşlığın gücləndirilməsi istiqamətində layihələr gerçəkləşdirilir. Bütün bunlarla bərabər, yeniliyə meyilli özəl sektorda aktivlik daha da canlandırılır, qeyri-neft sektorunun maliyyələşməsində bu sahənin payı artırılır.

# “Bakı KOB evi” – sahibkarların doğma ünvanı

**Cari ilin yanvar–iyun aylarında sahibkarlar “Bakı KOB evi”nə daha çox yükdaşımaları həyata keçirmək üçün icazə blankı, fərqlənmə nişanı, taxoqraf kartları və mənşə sertifikatının alınması, vergi və gömrük məsələləri, ionlaşdırıcı şüa mənbələrindən istifadə ilə əlaqədar elmi tədqiqat və təcrübə-konstruktor işlərinə dair icazə üçün müraciət ediblər.**




Kiçik və Orta Biznesin İnkişafı Agentliyindən (KOBİA) “XQ”yə bildirilib ki, hesabat dövründə sahibkarların lisenziya və icazələrin, qida təhlükəsizliyi sertifikatının alınması, yer təkinin istifadəyə verilməsi məqsədilə hərrac sənədləşdirilməsi, dövlət sosial sığorta sistemində fərdi uçotun həyata keçirilməsi üzrə müraciətləri də üstünlük təşkil edib.

Müvafiq xidmətlər sahibkarlara Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti, Dövlət Vergi Xidməti, Dövlət Gömrük Komitəsi, Fövqəladə Hallar Nazirliyi, KOBİA, İqtisadiyyat Nazirliyi, Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi, Qida Təhlükəsizliyi Agentliyi, həmçinin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən göstərilib.

Ümumilikdə isə “Bakı KOB evi”ndə 50-yə yaxın dövlət və özəl qurum tərəfindən sahibkarlara biznes fəaliyyəti üçün zəruri olan “G2B” və “B2B” xidmətləri göstərilir. Təkcə 2024-cü ilin yanvar-iyun aylarında “Bakı KOB evi”ndə sahibkarlara 157 min 940 xidmət göstərilib ki, bunun 140 min 556-sı dövlət, 17 min 384-ü isə özəl qurumlar tərəfindən təmin olunub.

Yeri gəlmişkən, Azərbaycanın KOB evi modeli beynəlxalq səviyyədə uğur əldə edib. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT) Dövlət Sektorunda İnnovasiyalar üzrə Tədqiqat Mərkəzinin keçirdiyi müsabiqədə ekspertlər KOB evlərini qabaqcıl innovativ təcrübələrdən biri kimi qiymətləndiriblər. Ölkəmizin sahibkarlara xidmət sahəsində nümunəvi modeli olan KOB evləri barədə qurumun saytında məlumat paylaşılıb.

Məlumat üçün bildirirk ki, İƏİT-in Dövlət Sektorunda İnnovasiyalar üzrə Tədqiqat Mərkəzinin saytında 2003-cü ildən ideyaların və yeniliklərin paylaşıldığı bölmə fəaliyyət göstərir. Burada dünyanın 90-a yaxın ölkəsində mövcud olan innovasiyalar barədə məlumatlar qeyd olunur ki, onların arasında KOBİA strukturuna daxil olan KOB evləri də yer alır.

Saytda dərc olunmuş məlumatda KOB evləri biznesin planlaşdırılması, biznesə başlanması, biznesin idarə edilməsi və inkişafı üzrə kiçik və orta biznes qurumlarına xidmətlər təqdim edən “bir pəncərə” mərkəzi kimi təqdim edilir. KOB sektorunun inkişafına töhfə vermək üçün dövlət və özəl qurumların imkanlarının bir platformada birləşdirilməsi və əlaqələndirilməsi unikal təşəbbüs kimi qiymətləndirilir.

Qeyd edək ki, İƏİT-in 2011-ci ildə yaradılmış Dövlət Sektorunda İnnovasiyalar üzrə Tədqiqat Mərkəzi dövlət sektorunda qabaqcıl innovasiyaların tətbiqinə və təbliğinə dəstək verən qlobal forumdur. Mərkəz dövlətlərə dəstək məqsədilə qabaqcıl innovativ təcrübələr, yeni ideyalar, biliklər, alətlər və əlaqə vasitələrini paylaşan platforma rolunu oynayır.

KOBİA-nın beynəlxalq əlaqələrinin genişlənməsindən bəhs edərkən bir məqamı da xatırladaq. Bu ilin mart ayında adıçəkilən qurum BMT-nin Qlobal Sazişinə qoşulub. KOBİA-nın məlumatına əsasən, agentlik BMT-nin Qlobal Sazişinin iştirakçısı olaraq strategiya və fəaliyyətini Dayanıqlı İnkişaf Məqsədlərinin müvafiq prinsiplərinə uyğunlaşdırmaqda, KOB-ların inkişafına və yeni sahibkarlıq subyektlərinin yaradılmasına dəstək göstərməklə qlobal davamlı inkişaf strategiyasına öz töhfəsini verməkdə davam edəcək.

KOBİA hazırda 2024-cü ilin ölkəmizdə “Yaşıl dünya naminə həmrəylik ili” elan olunmasını və BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycanda keçiriləcəyini nəzərə alaraq fəaliyyətində və KOB-larla iş prosesində ətraf mühit məsələlərinə, “yaşıl iqtisadiyyat”ın təbliğinə diqqəti daha da artırıb.

Hazırda mövcud dəstək infrastrukturu və mexanizmləri vasitəsilə KOB subyektlərinin “yaşıl iqtisadiyyat”da rolunun artırılması və “yaşıl keçid”in təbliği istiqamətində işlər görülür. Bilik, məlumat və məsləhət xidmətləri gerçəkləşdirən KOB inkişafı mərkəzləri, “yaşıl innovasiya”ları təşviq edən startap sertifikatı, “yaşıl təşəbbüs”lərinin maliyyələşdirilməsinə töhfə verən qrant proqramı, dövlət və özəl sektor xidmətlərinə çıxışı asanlaşdıran KOB evləri, regionlarda əlaqələndirmə funksiyasını yerinə yetirən KOB dostu şəbəkəsi və s. “yaşıl gündəliy”in dəstəklənməsi üçün önəmli vasitələrdir.

# Rusiya şirkəti Sumqayıta gəlir

**İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyi (İZİA) ilə Rusiyanın “Himtek Engineering” ASC arasında Anlaşma Memorandumu imzalanıb.**



İZİA-dan aldığımız məlumata görə, memorandum İqtisadi Zonaların İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Seymur Adıgözəlov və “Himtek Engineering” ASC-nin baş direktoru Sergey Luqovskoy tərəfindən imzalanıb.

Sənədə əsasən, “Himtek Engineering” ASC Sumqayıt Kimya Sənaye Parkının ərazisində kimyəvi məhsulların istehsalı layihəsini həyata keçirəcək. 100 milyon dollarlıq layihənin reallaşacağı təqdirdə isə müəssisədə 100 nəfərlik daimi iş yeri açılacaq.

İllik istehsal gücü 15 min ton təşkil edəcək müəssisənin buraxacağı məhsulların Azərbaycanda satılması ilə yanaşı, Rusiyaya ixrac edilməsi də planlaşdırılır.

# Sığortalanan əkinlər genişlənir

**Aqrar Sığorta Fondundan redaksiyamıza verilən məlumata əsasən, cari ilin yanvar–iyun aylarında ölkədə 384 min hektar əkin sahəsi sığortalanıb. Ötən ilin eyni dövrü ilə müqayisədə sığortalanan əkin sahələri 58 min hektar və ya 18 faiz artıb. Bu dövrdə ən çox sığortalanan kənd təsərrüfatı bitkiləri – buğda, arpa, qarğıdalı, pambıq, eləcə də çəltik, şəkər çuğunduru, fındıq və nar bağları olub.**



Sığortalı sahələrdə artım bütün bitkilər üzrə qeydə alınıb. Belə ki, sığortalanan pambıq sahələri 2,3 dəfə, çəltik əkinləri 2,2 dəfə, nar bağları 4,5 dəfə, arpa sahələri, təqribən, 2 dəfə, buğda sahələri isə 1,3 dəfə artıb.

Bu ilin yanvar–iyun aylarında 11 milyon 183 min manat aqrar sığorta haqları toplanıb. Bu vəsaitin 10 milyon 189 min manatı bitkiçilik sığortası üzrə ödənilib və əkin sahələrinə, ümumilikdə, 418 milyon manat sığorta təminatı verilib.

Ümumilikdə isə sığortalanan təsərrüfatlar üzrə verilmiş sığorta təminatının həcmi 430 milyon manata yaxın olub.

Qeyd olunub ki, Azərbaycanda aqrar sığorta dövlət dəstəyi ilə təqdim edilir – sığorta haqqının 50 faizini fermerlərə dəstək üçün dövlət özü ödəyir. Nəticədə fermerlər cüzi ödəniş etməklə təsərrüfatlarını çoxsaylı risklərdən sığorta edə bilirlər.

# Elektron satınalmalar 3 dəfə artıb

**Dövlət satınalmalarının elektron qaydada həyata keçirilməsi sahibkarların sərbəst və vaxt itkisinə məruz qalmadan satınalmalarda iştirakına və subyektiv amillərin aradan qaldırılmasına şərait yaradır.**



Bunu İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin rəisi Məmməd Abbasbəyli “X” sosial şəbəkəsindəki hesabında bildirib.

Xidmətin rəisi qeyd edib ki, 2024-cü ilin 6 ayı ərzində elektron satınalmaların həcmi 1 milyard 455,7 milyon manat təşkil edib. Bu göstərici 2023-cü ilin müvafiq dövrünə nəzərən 3 dəfyədək artım deməkdir.

Satınalmaların rəqəmsallaşdırılması rəqabətliliyin qorunmasına, biznes subyektlərinin satınalmalarda iştirak səviyyəsinin yüksəlməsinə töhfə verir.

*Səhifəni hazırladı:*
***Vaqif BAYRAMOV***
***XQ***




# “Yaşıl həyat” – yeni həyat tərzi

**Cəmiyyətin və iqtisadiyyatın “yaşıllaşdırılması” son illərin inkişaf tendensiyalarında xüsusi yer tutur. Ölkəmizdə bu istiqamətdə genişmiqyaslı layihələr həyata keçirilir, müəssisələrdə “yaşıl texnologiya”ların tətbiqinə mühüm önəm verilir. “Yaşıl iqtisadiyyat”ın formalaşmasında təbii ehtiyatlardan səmərəli istifadə məsələləri diqqət mərkəzində saxlanılır. Bundan başqa, innovativ iqtisadiyyatın “yaşıllaşdırılması” prosesləri və inkişaf problemlərinin həlli önə çəkilir. İqtisadiyyatın İKT əsasında “yaşıllaşdırılması” üzrə potensial istiqamətlər müəyyənləşdirilir.**



ETN İnformasiya Texnologiyaları İnstitutunun şöbə müdiri, iqtisad elmləri doktoru Əlövsət Əliyev söhbət zamanı bütün bu məqamlarla bağlı dedi:

– “Yaşıl iqtisadiyyat”ın formalaşması konsepsiyası resursyönümlü iqtisadiyyat, ətraf mühitin iqtisadiyyatı, “yaşıl texnologiya”lar və s. kimi bir çox sahələri özündə birləşdirir. Klasik mənada “yaşıl iqtisadiyyat” konsepsiyasına əks olan qəhvəyi iqtisadiyyat da var. Burada isə təbii maddi resurslardan daha çox istifadəyə, aşağı enerji səmərəliliyinə, tükənən enerji mənbələrindən asılılığa və yüksək dərəcədə iqlim riskinə əsaslanmalar daha üstün mövqeyə malikdir.

Ötən onilliklər ərzində bəşəriyyət tərəfindən qəhvəyi iqtisadiyyat prinsipləri əsasında bir çox yeni sərvətlər yaradılıb. Buna baxmayaraq, məlumdur ki, iqtisadiyyatın dayanıqlı inkişafı üçün iqtisadi proseslərin “yaşıllaşdırılması” zəruridir.

Hazırda dünyada “yaşıl” yönümlü yeni iqtisadi inkişaf modelinin yaranması əlamətləri daha çox müşahidə olunur. Qlobal iqtisadi böhran da “yaşıl iqtisadiyyat”ın formalaşmasını daha da sürətli və zəruri edir. Artıq bir çox dövlətlər tərəfindən hazırlanmış antiböhran proqramlarında ekoloji komponent əhəmiyyətli yerlərdən birini tutur.

Təsadüfi deyildir ki, bəşəriyyətin müasir dövrdə üzləşdiyi ekoloji, sosial və iqtisadi problemlərin həlli üçün yeni “yaşıl yanaşma”lardan və idarəetmə mexanizmlərindən istifadə olunmaqdadır. Ona görə də hesab olunur ki, “yaşıl əmək” fəaliyyəti, “yaşıl iqtisadiyyat”, “yaşıl istehsal”, “yaşıl təhsil”, “yaşıl idarəetmə”, “yaşıl təfəkkür” və “yaşıl həyat” tərzi gələcək həyatımızın əsas komponentlərinə çevrilməlidir.

“Yaşıl iqtisadi” sistemə keçid, əsasən, 3 mərhələdə həyata keçirilir. Birinci mərhələ son onillikləri və müasir dövrə kimi olan zamanı əhatə edir ki, bura insanların maariflənməsi və insan kapitalının inkişafı kimi tədbirlər daxildir. İkinci mərhələdə müasir dövr və yaxın perspektiv nəzərdə tutulur. Burada “yaşıl iqtisadi sistem”in elementlərinin formalaşdırılması reallaşdırılır. Üçüncü, sonuncu mərhələdə isə 2030–2050-ci illər əhatə olunur. Bu dövrdə artıq “yaşıl iqtisadi sistem”in gerçəkləşdirilməsi öz nəticəsini verir və davamlı inkişaf təmin edilir.

“Yaşıl transformasiya”ların və texnologiyaların geniş tətbiqində, başqa sözlə, “yaşıl cəmiyyət”ə və iqtisadiyyata keçiddə beynəlxalq əməkdaşlığın və yardımın rolu böyükdür. Belə ki, beynəlxalq ekoloji razılaşmalar “yaşıl cəmiyyət”ə və iqtisadiyyata keçidi asanlaşdırır və stimullaşdırır.

Qlobal ekoloji problemlərin həllində və iqtisadi fəaliyyətin ekolojiləşdirilməsində çoxtərəfli ekoloji razılaşmalar əhəmiyyətli rol oynaya bilər. BMT-nin müvafiq sahə üzrə, o cümlədən iqlim dəyişikliyi haqqında konvensiyaları da “yaşıl iqtisadiyyat”a keçid prosesinə bütün beynəlxalq ekoloji razılaşmalardan daha böyük təsir göstərə bilər.

Bir çox ölkələrdə iqtisadi artım daha çox təbii resursların (torpaq, su, meşə, enerji mənbələri, müxtəlif faydalı qazıntılar və s.) istismarına əsaslanıb. Ona görə də təbii resursların məhdud ehtiyatları müasir iqtisadi tendensiyaların saxlanılması ilə planet əhalisinin rifahının davamlı inkişafını reallaşdıra bilmir. BMT ekspertlərinin qeyd etdikləri kimi, ekoloji çatışmazlıq və sosial ədalətsizlik kimi xüsusiyyətlərə malik iqtisadi model “yaşıl iqtisadiyyat”dan olduqca uzaqdır. “Yaşıl iqtisadiyyat”a keçid üçün iqtisadi aktivlik mənbəyi kimi təbii resursların qorunması və artırılması, onun istifadəsinin səmərəliliyinin yüksəldilməsi, funksiyalarının dəstəklənməsi və gələcək nəsillər üçün saxlanılması xüsusi əhəmiyyət daşıyır.

Ətraf mühitin mühafizə edilməsində, cəmiyyətin “yaşıl texnologiya”lardan daha effektiv istifadəsinə nail olunmasında “yaşıl ekosistem”lərin və onlar tərəfindən göstərilən xidmətlərin qorunması “yaşıl iqtisadiyyat”ın prioritet istiqamətidir. Beynəlxalq iqtisadiyyatda bu xidmətlər tez-tez dünya üçün yeni olan “ekosistem xidmətləri üçün ödənişlər”, “ekoloji donor”, “kompensasiya mexanizmi”, “təbiətə mübadiləyə görə borclar” kimi iqtisadi-ekoloji mexanizmlərlə əlaqələndirilir.

Bir sıra fundamental beynəlxalq tədqiqatlar da ekoxidmətlər iqtisadiyyatına həsr olunub. Ekosistem xidmətlərinin iqtisadi praktikaya, o cümlədən maliyyə sektoruna daxil edilməsi üzrə tətbiqi işləmələr də artıq diqqətdə saxlanılıb. Belə işləmələr, təhlillər və müvafiq idarəetmə qərarlarının qəbulu müasir elmi-texnoloji üsulların tətbiqi ilə aparılan analitik təhlillərə əsaslanılıb.

Beləliklə, gələcək nəsillərin maraqlarına xidmət edən davamlı və uzunmüddətli inkişaf yalnız “yaşıl elmi-texnoloji prinsiplər” əsasında vətəndaşların, o cümlədən müvafiq mütəxəssislərin hazırlanması şəraitində gerçəkləşdirilə bilər.

***Söhbəti hazırladı:***
***Vaqif BAYRAMOV***
***XQ***

# Anqolada COP 29 sərgisi

**Anqolada fəaliyyət göstərən Azərbaycanın Dostları Təşkilatının (ADT) dəstəyi və Camunga Orkestri Mərkəzinin birgə təşkilatçılığı ilə bu ölkə məktəblilərinin COP 29-a həsr olunan əl işlərindən ibarət rəsm sərgisi təşkil edilib.**



Anqolanın Luanda şəhərindəki Camunga Mərkəzində açıq havada reallaşan sərgi barədə soydaşımız, ADT-nin prezidenti Billurə Bayramova məlumat verib. O, belə tədbirlərin keçirilməsinin zəruriliyini və Luandada adıçəkilən mərkəzin valideynlərini itirmiş, aztəminatlı və qüsurlu uşaqların evi kimi tanındığını qeyd edib. B.Bayramova eyni zamanda, rəsm sərgisini yeni dünyaya açılan yeni pəncərə adlandırıb.

Tədbirdə çıxış edənlər sərginin əhəmiyyətindən danışıb, ekoloji mühitin yaxşılaşdırılmasının və bununla bağlı müvafiq tədbirlərin həyata keçirilməsini bütün ölkələr üçün prioritet vəzifə olduğunu bildiriblər. Belə sərgilərin keçirilməsində məqsədin isə insanları, xüsusilə, gəncləri ekoloji proseslərdə fəal iştiraka sövq etmək, bu sahədə maarifləndirməni diqqət mərkəzində saxlamaq və genişləndirmək olduğunu vurğulayıblar.

Natiqlər qeyd ediblər ki, yerli mərkəzlərlə hər növ iş birliyi ölkələr arasındakı iqtisadi, mədəni və elmi körpülərin yaranmasını şərtləndirir, gənclərin xalqların dili, mədəniyyəti, tarixi haqqında bilgilərini dərinləşdirir.

Sərgidən sonra iştirakçılar Luandada yeni açılmış Elm muzeyini də ziyarət ediblər. Tədbirin sonunda xatirə şəkilləri çəkdirilib.

***XQ***

# Bakı–London su əməkdaşlığı



**Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyində Böyük Britaniyanın Azərbaycandakı səfiri Ferqus Auldla ilə keçirilən görüş zamanı tərəflər arasında su ehtiyatlarının idarə edilməsi sahəsində təcrübə və bilik mübadiləsi, potensial əməkdaşlıq imkanları nəzərdən keçirilib.**

Söhbət əsnasında bu il ölkəmizdə keçiriləcək BMT-nin İqlim Dəyişimələri üzrə Çərçivə Konvensiyası Tərflər Konfransının 29-cu sessiyasına (COP29) hazırlıq prosesi haqqında da müzakirələr aparılıb.

Görüşdən sonra səfir Ferqus Auld “X” sosial şəbəkəsində bu görüşlə bağlı paylaşım edib. İqlim dəyişikliyinin əsas fəsadlarından birini su ehtiyatlarının mənfi təsirə məruz qalması ilə əlaqələndirən səfir yazıb: “Biz Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin nümayəndələri ilə COP29-dan əvvəl və sonra əməkdaşlıq yolu ilə bu problemin öhdəsindən gəlmək yollarını müzakirə etdik”.

***XQ***

# Zaman dəyişib, aktuallıq artıb

## 51 il əvvəl qəzetimizdə verilmiş bir yazı bu gün də diqqət çəkir

**Söhbət “Kommunist” qəzetinin 11 oktyabr 1973-cü il tarixli 239-cu nömrəsində “Azərinform”un (indiki AZƏRTAC) təqdimatı ilə verilmiş “XXIV Beynəlxalq Astronavtika Konqresində” adlı geniş məqalədən gedir. Xatırladaq ki, ötən il – həmin beynəlxalq tədbirdən 50 il sonra Azərbaycan paytaxtı daha bir möhtəşəm astronavtika konqresinə evsahibliyi etdi.**

Qəzetimizin arxivindən məhz bu yazını seçməyimiz təsadüfi deyil. Çünki Bakı bu gün daha möhtəşəm bir beynəlxalq tədbirin astanasındadır. Məlum olduğu kimi, noyabrda ölkəmizdə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 keçiriləcək. Prezident İlham Əliyevin fikrincə, beynəlxalq ictimaiyyətin yekdil mövqeyi ilə COP29-un Azərbaycanda keçirilməsi barədə qərar ölkəmizə etimadın və hörmətin təzahürüdür.

İndi haqqında söz açmaq istədiyimiz məqalənin bugünkü reallıqlarla üst-üstə düşdüyünü, mövzunun aktuallığını təsdiqləmək üçün 51 il əvvəl qələmə alınmış yazının ilk cümləsini xatırlatmaq kifayətdir: “Bakıda keçirilən XXIV Beynəlxalq Astronavtika konqresinin proqramında insanı əhatə edən mühitin və Yerin təbii ehtiyatlarının öyrənilməsi üçün kosmik metodlardan istifadə edilməsi problemləri əsas yerlərdən birini tutur”.

Bu cümlə SSRİ Elmlər Akademiyasının müxbir üzvü, Beynəlxalq Astronavtika Akademiyasının həqiqi üzvü K.Y. Kondratyevin Azərinformun müxbirinə verdiyi müsahibədən götürülmüşdür. Akademik əlavə edir: – Mən hesab edirəm ki, Yer üzündə sülhü qorumaq problemindən sonra ikinci yeri tutan məsələ – ətraf mühit və təbii ehtiyatlar problemi indi də ən mühüm vəzifələrdən biridir.


ХХIV бејнəлхалг астронавтика конгресиндə

КОММУНИСТ 2

№239

Diqqət yetirin, ulu öndər Heydər Əliyevin təşəbbüsü və dəvəti ilə Bakıya gəlmiş akademik öncə sülhün vacibliyini vurğulayır, sonra isə ətraf mühitin problemlərini və təbii sərvətlərin öyrənilməsi yollarını.

İndi diqqəti daha bir mühüm fakta yönəldək. Azərbaycan Prezidenti İlham Əliyev də öncə torpaqlarımızın düşmən tapdağından azad edilməsini əsas vəzifə kimi qarşıya qoymuşdu, sonra isə nəinki işğaldan azad edilmiş ərazilərimizin bərbad şəkilə salınmış ekologiyasının bərpasına, hətta regionda və bütün dünyada ekoloji tarazlığın qorunması istiqamətində mühüm addımlar atılmasına nail olmuşdur. Danılmaz faktdır ki, bu gün Azərbaycanın “yaşıl enerji” siyasəti, “yaşıl dünya” strategiyası və “yaşıl iqtisadiyyat” prinsipləri beynəlxalq aləmdə hamı tərəfindən alqışlanır...

Akademik davam edir: – Planetlər miqyasında insanı əhatə edən mühitin vəziyyəti üzərində müşahidə, qlobal təbii ehtiyatların müəyyən edilməsi – yalnız Yerin süni peyklərinin köməyi ilə səmərəli surətdə həyata keçirilə bilən bu işlər getdikcə daha böyük əhəmiyyət kəsb edir. Bu, Yer kürəsi əhalisinin sürətlə artması ilə, bəzi ölkələrdə təbii ehtiyatların xeyli azalması ilə, insanın təsərrüfat fəaliyyəti nəticəsində atmosferin və dünya okeanının çirklənməsi nəticəsində ətraf mühitin vəziyyətinin pisləşməsi ilə əlaqədardır.

İndi isə akademikin həmin sözlərindən 51 il sonra hazırlanmış bir hesabata diqqət yönəldək. “Azərkosmos”un Coğrafi İnformasiya Sistemləri Mərkəzinin direktoru İsmət Baxışov “Peyk texnologiyalarından istifadə etməklə iqlim dəyişikliyi ilə bağlı baş vermiş təsirlərin qiymətləndirilməsi və iqlim dəyişikliyinə qarşı aparılan tədbirlərin effektivliyinin artırılması məqsədi ilə Azərbaycan Respublikasının Kosmik Agentliyi (“Azərkosmos”) tərəfindən həyata keçirilmiş monitorinqlərin 2023-cü ildəki (təbii ki, bu ilin hesabatını hazırlamaq hələ mümkün deyil) nəticələrinə dair hazırlanmış hesabat haqqında danışarkən demişdir:

–Kosmik monitorinqin həyata keçirilməsi məqsədilə ölkə üzrə Azersky peyk təsvirləri ilə yanaşı, açıq mənbələrdən də istifadə olunmuşdur. İqlim dəyişikliyinin təsirlərinin monitorinq olunması üçün ətraf mühitin hazırkı vəziyyəti əvvəlki illərlə müqayisəli təhlil edilmiş və qiymətləndirilmişdir. Həmçinin, su ehtiyatlarının ekoloji vəziyyəti, dəyişmə tendensiyasının qiymətləndirilməsi və hidroloji vəziyyətin formalaşmasına təsir edən təbii və antropogen amillər monitorinq olunmuşdur. Daha dolğun nəticələrin əldə olunması məqsədilə kosmik monitorinq 5 istiqamət üzrə aparılmışdır: kriosfer, hidrosfer, litosfer, biosfer və atmosfer.

İndi gəlin, bu faktları əvvəlcə Bakıda keçiriləcək COP29-un gündəliyi ilə müqayisə edək. Kim müqayisə etsə, məramların üst-üstə düşəcəyini görəcək. Sonra isə həmin sənədi 51 il əvvəl qəzetimizdə işıq üzü görmüş müsahibənin tezisləri ilə yanaşı qoyaq. O zaman isə adıçəkilən məqalənin yenidən yada salınmasının mühümlüyünü etiraf edəcək.

Məqalənin sonunda deyilir: “Şübhə yoxdur ki, insanı əhatə edən mühitin və təbii ehtiyatların kosmosdan tədqiq edilməsi probleminin, habelə astronavtikanın digər problemlərinin həllinə yönəldilən beynəlxalq əməkldaşlığın daha da inkişafında, alimlərin və mühəndislərin qüvvələrinin birləşdirilməsində Bakıda keçirilən XXIV beynəlxalq konfrans mühüm rol oynayacaqdır”.

Elə bizdə də şübhə yoxdur ki, bu payızda reallaşdıracağımız COP29 dünya siyasətçiləri və alimləri arasında əməkldaşlığın daha da inkişafında, alimlərin və mühəndislərin qüvvələrinin birləşdirilməsində özünəməxsus rol oynayacaq, Azərbaycana olan inam və etimadın, dövlətimizin nüfuzunun daha da artmasına xidmət edəcək.

Bəli, “Xalq qəzeti” tarixinin hansı səhifəsinə baxırsansa bax, bu məqalə kimi aktuallığını itirməyən çoxsaylı materiallarla rastlaşırsan. Məhz bütün bunlara görə ulu öndər Heydər Əliyev deyirdi ki, “Xalq qəzeti” bütün fəaliyyəti dövründə xalqın yanında olmuş, ona xidmət etmişdir. 105 yaşın mübarək, ana qəzetimiz!

***İttifaq MİRZƏBƏYLİ,***
***Əməkdar jurnalist***

Vida sözü

# Məhşər qızı cənnətə qovuşdu

## Ozü qayıda bilməsə də, ruhu artıq doğma Xocalıda dolaşır

**“Qaranlıq zindanın içində, günəşin işığını unutmuşduq. Bizə yalnız acı, soyuq və əzab qalmışdı. Bu işıqsız dünyada insan ruhunun necə sınacağını hiss etmək ölməkdən betər idi”. Bu sətirlər Dürdanə Ağayevanın “Erməni zindanında 8 gün” kitabındandır. Dünən eşitdiyimiz ağır xəbərdən hamımız sarsıldıq. Xocalı soyqırımı zamanı 8 gün erməni girovluğunda bu dünyanın cəhənnəmini görmüş Dürdanə Ağayeva elə ağlagəlməz işgəncələrdən aldığı cismani-fiziki zərbələrin uzun sürən fəsadları ilə mübarizə apararaq işıqlı həyatla vidalaşdı. “Xərçəng” dediyimiz əlacsız bəla, əslində, 3 il əvvəl erməni işgəncələri ilə onun varlığına hopmuşdu.**




Dürdanənin haqq dünyasına qovuşması xəbərini eşidəndə, onunla bağlı bir videonu xatırladım. Həvəskar çəkiliş idi. Hansısa tədbirdə Dürdanə danışır, məclisdəkilər gözlərində dəhşət və utancla onu dinləyirdilər. Deyirdi: “Xocalı faciəsində özümü kişilərdən də güclü gördüm. Fevralın sonu, ya martın əvvəli idi. Məni 5 erməni təpiklə döydükdən sonra nəbzimi yoxlayıb, ölü hesab edib küçəyə zibilliyə atıblar. Orada 8–10 saat qalmışam. Sonra Allahın mərhəmətindən özümə gəlmişəm. Huşum başımda, ağlım, yaddaşım itməmişdi, amma gözümü aça bilmirdim. Bu günümüzə şükür edək ki, görürük. Baş barmağımı ağzımda isladıb bir-birinə yapışan kipriklərimi açmağa çalışmışam. Bu proses, bəlkə də, 1 saat çəkib. Kipriklərim aralanıb və mən işartı görmüşəm. Bir erməni qadının qalın hörüyümdən tutub məni zibillikdən sürüyüb yerə saldığını, sonra aparıb kameraya atdığını da yaxşı xatırlayıram. Divarlar nəm, döşəmə beton və su, hava soyuq”.

Bu dəhşətli açıqlamaya qulaq verdikcə, həm dəhşətə gəlib, həm də qürur duymuşdum ki, Allahım, necə güclü qadınlarımız var. Deyirdi xərçəng mənə nə edəcək? Ölüm haqqdır. Amma olmazın işgəncələr görən qadının bu dünyaya belə ağrı-acı ilə vida etməsinə daha çox təsirlənirik. Arzuları vardı, söyləmədikləri qaldı... Qızının xoşbəxt anlarına doyunca şahidlik edəmmədi. Amma buna da şükür, heç olmasa nəvəsini gördü. Qızının ana sevincinə qoşuldu. Güclü, o qədər də yaralı- sitəmli qadının, bu nə tale idi, bəxtinə yazılmışdı?!

Xocalılıların yaşadığı acıları, ağrıları, iztirabları, işgəncələri Dürdanənin kədərli simasında görməmək mümkün deyildi. Bunun nəticəsi idi ki, həmin günlərin stressi, həyəcanı və qorxusu vaxtsız xəstəliyə çevrilib vəziyyətini ağırlaşdırdı... Nəhayət, onu doğmalarından və bizdən ayırdı. “Kaş ki” deməklə nə gedənlər qayıdır, nə də ötənlər geri dönür. Təəssüf, çox təəssüf...

Dürdanə Xocalı dəhşətini bütün iliklərinə qədər yaşamış bir fələkzadəsi idi. Xocalı qətliamında – ermənilərin əsir götürdüyü yüzlərlə qız-gəlin arasında 20 yaşlı Dürdanə Ağayeva da olmuşdu. Düz 8 gün həyatının cəhənnəmini yaşayan qız Allahdan ölüm diləmişdi. Amma onun qismətində yaşamaq varmış. Sağ qalıb, erməni vəhşiliyini dünyaya car çəkmək, Xocalının azadlığını, baş meydanda Azərbaycan bayrağının dalğalandığını görmək üçün Tanrıdan möhlət diləmişdi.



Qiyamətin Xocalıya endiyi o məhşər günlərində Milli Qəhrəman Allahverdi Bağırovun erməni qaniçənləri ilə danışığa girib əsirlikdən azad etdiyi 60 qadının içərisində Dürdanə Ağayeva da var idi. Söhbətlərində bunu həmişə dilinə gətirib ona rəhmət oxuyurdu. Hətta Ağdam işğaldan azad ediləndən sonra vəfa borcu kimi gedib Allahverdi Bağırovun dağıdılmış məzarını da ziyarət etmişdi.

O, 1972-ci ildə doğulmuşdu. 1989-cu ildən Xocalı Telefon Qovşağında telefonçu işləyirdi. Xocalı faciəsindən 10 gün əvvəl telefona bir zəng gəlir. Ermənilərdən biri təhqir dolu ifadə ilə “filan xocalılıları qıracağıq”, – deyib dəstəyi asır. Həmin zəngdən qorxub ağlayan Dürdanə anasına “ermənilər bizi hədələyir” – deyir. O, bu barədə Milli Qəhrəman, Xocalı aeroportunun rəisi Əlif Hacıyevə də bildirir. Həm anası, həm də Ə.Hacıyev bunun, sadəcə, hədə olduğunu, ermənidə o cəsarətin olmadığını deyirlər.

Təəssüf ki, həmin erməni deyən olur. Xocalı hadisəsinin baş verməsinə səbəblər çox idi. O vaxt ölkəmizdə hakimiyyət üstündə gedən dava baş qatmışdı. Həm də ermənilərin belə amansızlıqla xalqımıza divan tutacağını kimsə ağlına gətirmirdi. Sonradan Serj Sərkisyan da bu barədə demişdi ki, azərbaycanlılar bizim belə addım atacağımızı gözləmirdi. Sən demə, bu toplum insanlıq simasını sonadək itiribmiş.

Dürdanə deyirdi ki, hər il fevralın 25-indən 26-na keçən gecə, demək olar ki, “havalanıram”. 20 yaşında əsir düşən, dəhşətli işgəncələr görən qız nə danışaydı? Ağrı-acılar danışılası, sözlə ifadə ediləsi idimi? Allah namərdlərin bəlasını versin. Necə ki, verdi. Əsirlikdə olduğu 8 gün hər an Allahdan ölüm diləmişdi, 3 dəfə özünə qəsd etmişdi. Gəlib-gedəndən övlad soraqlayan anasının duaları Tanrıya çatmışdı...

İnsanın illər sonra danışsa da deyə bilmədikləri də çox olur. Elə yaşananlar var ki, insan onu dilə gətirə, unuda bilmir. Amma, sonra düşünür ki, başına gələn faciəni danışmırsa, özünə yox, millətinə xəyanət edir və yaxud ermənilərin cinayətlərini gizlədir. Buna görə də o, danışmağa qərar verir. Ermənilərin iyrəncliyini, köməksiz qadınlara qarşı rəzalətini dünyaya yaymaq, onların, əslində, kim olduğunu tanıtmaq üçün danışır.

Amma ürək də süfrə deyil, hər yetənə açasan. O, ürəyindəki nisgili, ağrını həmişə yalnız həyat yoldaşı ilə bölüşüb. Nə biləydi ki, o da Dürdanəni tez tərk edəcək. İlhamla əl-ələ tutub, qərar verməyənə qədər ailə barədə düşünməyib. Fikirləşib ki, hansısa oğlanla ailə qursa, söz-söhbət düşəndə bircə dəfə “sən əsirlikdən çıxmısan”– desə, ürəyi partlayar. Allah böyükdür– onun rastına İlham kimi mərd oğlan çıxardı. Həyat yoldaşını ikinci Allahı bilən Dürdanə bir qız övladı, bir nəvə ilə mükafatlandırıldı.

Xocalının işğaldan azad edildiyini görən, lakin doğma yurda qayıdıb orada yaşaya bilməyən, dərdi vücudundan böyük qadın, rahat uyu. Sənin və sənin kimi minlərlə işgəncə qurbanının qisası, cəhənnəmə döndərilmiş Qarabağın intiqamı, insanlıq qənimi olduqlarını çağdaş dünyaya utanmadan nümayiş etdirmiş vəhşi erməni quldurlarından artıqlaması ilə alındı. Sənin övladın, nəvən bu yurda əmanətdir! Sən cəhənnəmi bu dünyada yaşadın, məkanın, əlbəttə ki, cənnətdir. Bu dünyanı sənə dar edənlərin Yaradan qarşısında cavab verməyi isə daha ağır olacaq. Dostlarının, səni tanıyanların, doğmalarının qəlbində cəsur və güclü qadın kimi həmişə xatırlanacaqsan.

Allah rəhmət eləsin!

*Zərifə HÜSEYNOVA*
*XQ*

Azərbaycanı dünyada tanıdanlar

# Kompüter mühəndisliyini zənginləşdirmiş soydaşımız

**Novruz Allahverdi – Allahverdiyev Novruz Muxtar oğlu Azərbaycan elminin dünyaya tanıdılmasında xidməti olan alimlərdən idi. Ötən əsrin 70-ci illərinin sonlarında onun layihələndirdiyi hiperkub şəklindəki çoxmikropressorlu hesablama sistemi amerika alimlərinin diqqətini cəlb edib, 1983-cü ildən ABŞ-da istehsal edilən analoji sistemlərdə alimin bu tədqiqatından istifadə olunub.**



Dərin zəka sahibi olan soydaşımız ABŞ, Fransa, Almaniya, İtaliya, Bolqarıstan və digər xarici ölkələrdə keçirilmiş beynəlxalq miqyaslı elmi konfrans və simpoziumlarda, eləcə də Avropa Birliyinin bir sıra layihələrində iştirak edib. Süni intellektin müxtəlif sahələrində, qeyri-səlis ekspert sistemlərinin layihələndirilməsi və tətbiqi ilə bağlı olan elmi işləri həyata vəsiqə alıb və müxtəlif sahələrdə müvəffəqiyyətlə tətbiq olunub.

Keçən əsrin 90-cı illərində kompüter mühəndisliyi üzrə tanınmış professor kimi Novruz Allahverdi ilə qardaş Türkiyədə də maraqlanıblar. 1992-ci ildə Səlcuq Universitetindən rəsmi dəvət alıb, ailəsi ilə birgə daimi yaşamaq üçün Konya şəhərinə köçüb. Ömrünün son illərində Konyadakı Karatay Universitetinin “Kompüter mühəndisliyi” kafedrasının müdiri olub.

1948-ci ildə Ağdam rayonunun Qaradağlı kəndində doğulan Novruz Allahverdi 1966-cı ildə orta məktəbi gümüş medalla bitirmiş, Politexnik İnstitutunda (indiki Azərbaycan Texniki Universiteti) “Riyazi-həlledici cihazlar və qurğular” (kompüter mühəndisliyi ixtisası) üzrə ali təhsil (1966–1971) almışdır. Daha sonra 1976–1979-cu illərdə Moskva Energetika İnstitutunun aspiranturasında təhsilini davam etdirmişdir, “Siqnalların rəqəm işləməsi problemləri üçün çoxmikropressorlu hesablama sisteminin layihələndirilməsi və analizi” mövzusunda dissertasiya işini müdafiə edərək alimlik dərəcəsi almışdır. Bundan sonra Azərbaycan Politexnik İnstitutunun hesablama texnikası kafedrasında assistent, baş müəllim, dosent vəzifələrində çalışmışdır. Türkiyənin Səlcuq Universitetində dosent (1992–2000), professor (2000–2015) vəzifələrini tutmuşdur.

2006-cı ildən Səlcuq Universiteti Senatında fakültə təmsilçisi olan həmyerlimiz texnologiya fakültəsində kompüter təhsili üzrə müəllim-mütəxəssislər hazırlayan kafedrasını, sonra isə kompüter mühəndisliyi kafedrasını yaratmış və onlara rəhbərlik etmişdir.

N.Allahverdi 36 gəncə kompüter elmləri üzrə magistr və fəlsəfə doktoru dərəcələrini almaq üçün elmi rəhbərlik edib. Səlcuq Universitetində işlədiyi illərdə regionlararası və beynəlxalq miqyaslı bir çox elmi və texniki layihələrin rəhbəri olub. O, prosessorların və çoxprosessorlu paralel hesablama sistemlərinin layihələndirilməsi, distant təhsil problemləri, habelə süni intellekt problemlərini araşdırıb. Son illərdəki elmi fəaliyyətində onu tibbdə və avtomatlaşdırmada qeyri-səlis məntiqin, süni neytron şəbəkələrinin və digər süni intellekt metodlarının tətbiqi problemləri daha çox maraqlandırırdı.

Elmi fəaliyyəti dövründə Novruz Allahverdi 10 kitabın (onlardan 4-ü Türkiyədə nəşr edilib) və əsasən SCI sistemində olan beynəlxalq miqyaslı elmi jurnallarda yayımlanmış bir çox elmi məqalənin müəllifi olub. Onun, ümumilikdə, 200-ə yaxın elmi məqaləsi beynəlxalq statuslu elmi jurnallarda dərc edilib. “Google Scholar” beynəlxalq bazasının hesabatlarına görə Novruz Allahverdinin elmi işlərinə 2500-ə qədər istinad olub.

Dünya elminə töhfələri və miras qoyduğu zəngin irsi ilə yaddaşlarda qalan Novruz Allahverdi 2023-cü ildə vəfat edib. Tanınmış alim öz vəsiyyətinə uyğun olaraq yaşadığı Konya şəhərində “Yazır” qəbiristanlığında torpağa tapşırılıb.

*Namiq QƏDİMOĞLU*
*XQ*

# Azyaşlıların beyni rezin şar deyil

## Uşaqların zehni inkişafı fiziki imkana uyğun olmalıdır

Mütəxəssis rəyi

**Hazırda əksər valideyinlər hazırlıq məqsədilə azyaşlı uşaqlarını bir qayda olaraq məktəbəqədər kurslara aparırlar. Ödənişli əsaslı bu kurslarda səhər saatlarında başlayan dərslər günorta saat 3-ə, 4-ə qədər davam edir. Bundan sonra uşaqlar şahmat, rəqs kimi dərnəklərə, hətta əlavə hazırlığa belə gedirlər. Bu hal gündəlik, bəzən isə şənbə, hətta bazar günlərində də davam edir. Uşaqların belə “zehni yüklənməsi” onların gələcək inkişafına təsir prizmasından prinsipial maraq doğurur. Azərbaycan Tibb Universitetinin farmakologiya kafedrasının müdiri, tibb elmləri doktoru Musa Qəniyevdən bu cür yanaşmanın uşaqların fiziki-zehni inkişafı və sağlamlığına təsirini tibbi aspektdən təhlil etməsini xahiş etdik. Professor çox vacib məsələyə toxunduğumuzu bildirib dedi:**



– Uşaqlarda beyin qabığının formalaşması fonunda ilkin yaddaş təfəkkürü 3–5 yaş arasında yaranır, intellekt indeksi isə 9–12 yaşa qədər yüksələn xətt üzrə gedir. Hətta 6 yaşın tamamında belə, düşüncə təfəkkürü və sosiallaşma hələ formalaşma mərhələsində olur. Odur ki, inkişafda olan uşaq beyininin hədsiz yüklənməsi ciddi fəsadlara yol aça və beyin strukturlarının inkişaf dinamizmini poza bilər. Çünki baş beyinin energetik potensialı məhduddur. Hansısa bir psixi funksiyanın daha çox inkişafına tələbatdan artıq enerji sərf edilirsə, bu halda digərinin tam gücü ilə işləməsi və inkişafında “balans uyğunsuzluğu” yaranır. Sadə dildə desək, məlum tapşırığı yerinə yetirməyə məsul beyin strukturu, bioenerjini digər beyin strukturlarından “oğurlayır”. Məsələn, 3 yaşlı uşağa oxumağı və yazmağı öyrətdikdə, beyin yarımkürələrinə çox böyük yük düşür və enerji həmin hissəyə istiqamətlənir. Halbuki, fizioloji inkişaf baxımından bu yaşda enerji sensemotor və emosional intellektin inkişafına istiqamətlənməlidir. Odur ki, uşaq oxumağı öyrənir, lakin digər, məsələn, emosional vərdişlərin inkişafı ləngiyir və ya tamamilə dayanır. Bu ilkin mərhələdə müşahidə edilməsə də, sonrakı yaş dövründə özünü diqqət zəifliyi, görmə-hərəki koordinasiyanın pisləşməsi, fiziki aktivliyin azalması və s. kimi əlamətlərlə göstərir.

**– Beyinin yüklənməsi uşaqlarda daha hansı dəyişikliklərə səbəb olur?**

– Belə uşaqlar idmanı sevmir, cəld hərəkətlərə meyilli olmur, sensemotor inkişafda ləngimə, diqqət zəifliyi və hiperaktivlik müşahidə edilir. Hətta yetkinlik yaşına çatanda belə, onlarda inkişaf mexanizmi tam formalaşmır. Zehni inkişafları yüksək səviyyədə olsa da, ən sadə, qeyri-standart məsələlərin həlli (özünə qulluq, adi çətinlikdən baş çıxarmaq və s.) onların kompetensiyası xaricində olur. 3–4 yaşa qədər oxu vərdişinin əsasını təşkil edən görmə və hərf işarələrini fərqləndirmək yaddaşı tam formalaşmadığından, qeyri-effektiv oxu mexanizmi yarana və saxlanıla bilir. Birincili uşaqlıq (3–6 yaş) yaş dövrünün ilk illərində baş beyinin həddən artıq yüklənməsi, beyinin plastikliyinin azalması, yuxu ritminin pozulması, laqonevroz və enurez kimi ciddi fəsadlara zəmin yarada bilər. Xatırlatmaq istəyirəm ki, məktəbəqədər yaş qrupunda olan uşaqlar arasında tez-tez xəstələnmə hallarının baş verməsinin əsas səbəblərindən biri yox, birincisi, uşaqların beyininin yaşlarına uyğun olmayan, hədsiz yüklənməsilə əlaqədardır.

**– Professor, sizin fikrinizcə, uşaqların məktəbə gedənə qədər yazıb-oxumağı öyrənməsinə ehtiyac yoxdur?**

– Yoxdur demirəm. Beyini yersiz və zamansız yükləmək lazım deyil. Deyirəm ki, “uşaqları məktəbə hazırlamağın ən yaxşı yolu, məktəbdə öyrədiləcəyini məktəbəqədər öyrətmək lazımdır” – fikri tamamilə yanlış və əsassızdır.

Sualınıza cavab olaraq bildirirəm: Bəli, uşağı məktəbə hazırlamaq lazımdır, lakin oxumaq, yazmaq, riyazi bilik kimi mürəkkəb vərdişlərin 5 yaşından sonra, tələsmədən, tədricən və mərhələli şəkildə öyrədilməsi şərtilə. Uşaqlar fərqli düşüncə və intellektə malikdirlər. Əgər uşaq daha erkən yaşda oxumaq və yazmaq kimi vərdişlərə maraq göstərərsə, buna mane olmaq da lazım deyil. Sadəcə onun inkişafının yaşa uyğun tənzimlənməsinə çalışmaq lazımdır. Yalnız bu halda, baş beyin strukturlarının dinamik inkişafı və formalaşması baş verir. İlkin məktəb yaş dövründə isə uşaq akademik vərdişləri daha rahat başa düşür, fəsadsız qəbul edir.

**– Uşaqlarını bəzən tanışları ilə bəhsə düşüb erkən, 3–4 yaşdan hazırlıq kurslarına, 5–6 yaşdan məktəbə aparan gənc ailələrə tövsiyəniz.**

– Unutmaq olmaz ki, beyinin çəki və həcm ölçülərinin sürətli inkişafı, eləcə də beyin strukturlarının tənzim və əlaqə mexanizmlərində vəhdət halı uşaq 6,5–7 yaş dövrünə çatdıqda tamamlanır. Yalnız bu yaşda uşaq fizioloji, intellektual və psixoloji baxımdan yeni yaşam mərhələsinə hazır olur. 1-ci sinfə getməyin ən optimal dövrü 6,5–8 yaş hesab olunur. Bu, elmi təsdiqini tapmış sübutlu məntiqdir.

Mən bu fikirləri həm də, hazırda bütün dünyada təsdiqlənmiş “Kiçik və məktəbəqədər yaş qrupunda olan uşaqlara oxumaq, yazmaq, riyaziyyat və s. kimi vərdişlərin aşılanması yaxşı heç bir şey vəd etmir” konsensusunu gənc ailələrə xatırlatmaq üçün deyirəm. Onlar başa düşməlidirlər ki, uşağın beyini ağ vərəqdir, nə desən götürəcək. Amma zaman keçdikcə bu, uşaqlarda beyinin yüklənməsinə və onun nəticəsində yaranan zehni yorğunluğa və əsəbiliyə gətirib çıxaracaq. Müşahidələrimizə əsasən deyə bilərəm ki, belə uşaqlarda bəzən, hətta, oxumağa meyil azalır, idmandan uzaqlaşma, yorğunluq halları baş verir, həvəssis olurlar.

Professorun fikirlərinə əlavə olaraq digər mütəxəssisləri – ibtidai sinif müəllimi Ülviyə Namazovanı və pediatr Gültəkin Əsgərovanı da dinlədik. Onlar bildirdilər ki, kiçik yaşlı uşaqların beyinini yükləyəndə beyinə gedən qanın sürəti azalır. Körpə uşağın 4–5 yaşından tez hazırlığa getməsi, 5–6 yaşından isə məktəbə göndərilməsi o uşağa qarşı qanunsuzluqdur. Onların həmin yaş həyatına müdaxilədir. Uşağın barmaqlarının incə iş görməsi üçün, yaxud qələm tutması, yazı yazması üçün onun xırda barmaq əzələləri 7 yaşına ancaq formalaşır. Ona görə uşaqlar 7 yaşında məktəbə getməlidir. Amma biz onları məcbur edirik ki, 5 yaşından onlara uyğun olmayan proqramı mənimsəsin. Bu, onlara xeyirdən çox zərər verər. Axı uşaq həmin dövrdə nə fiziki, nə də zehni cəhətdən bu proseslərə hazır olmur.

*Z.BƏŞİRQIZI*
*XQ*

# Milli kinomuz: ənənələr, çağırışlar, hədəflər

**Tanınmış Azərbaycan rejissoru, ssenari müəllifi, prodüser Əli İsa Cabbarov 30-a qədər müxtəlif səpkili filmin müəllifidir. 15 ildən bəri çalışdığı Azərbaycan Kinematoqrafçılar İttifaqının (AKİ) katibi, Cənubi Qafqaz Müstəqil Kinematoqrafçılar Assosiasiyasının, "Fokus" analitik kino jurnalının naşirlərindən biri kimi də kinomuzun qayğıları ilə yaşayır. Əli İsa Cabbarovla milli ekran sənətinin bugünü və sabahı barədə müsahibəni təqdim edirik:**



**– Əli İsa müəllim, ötən həftə Kino Gününü qeyd etdik. 126 yaşlı Azərbaycan milli kinosu bugünün zirvəsindən necə görünür?**

– Bu bayram ulu öndər Heydər Əliyevin 2000-ci il 18 dekabr tarixli sərəncamı ilə təsis edilib. Ümummilli liderin mədəniyyət və incəsənət xadimlərinə, kino sahəsində çalışanlara göstərdiyi diqqət və qayğı ənənəsi hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısının "Azərbaycanda kino sənətinin inkişaf etdirilməsi haqqında" 2007-ci il 23 fevral tarixli sərəncamı milli kinomuzun maddi-texniki bazasının möhkəmləndirilməsinə yeni təkan verib. Prezidentin müvafiq sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan kinosunun 2008–2018-ci illər üzrə inkişafına dair Dövlət Proqramı"nın icrasını təmin etmək məqsədilə bir çox mühüm işlər görülüb.

Cənab İlham Əliyev 2022-ci il aprelin 20-də kinematoqrafiya sahəsində dövlət siyasətinin həyata keçirilməsinin təkmilləşdirilməsi, Azərbaycan kinematoqrafiyasının beynəlxalq rəqabətə davamlılığının təmin edilməsi, yerli istehsal və yayım infrastrukturunun müasirləşdirilməsi məqsədilə "Azərbaycan Respublikasının Kino Agentliyi" publik hüquqi şəxsin yaradılması haqqında fərman imzalayıb. Fərmana əsasən, Mədəniyyət Nazirliyinin tabeliyində "Azərbaycan Respublikasının Kino Agentliyi" publik hüquqi şəxs yaradılıb.

Azərbaycan kino sənəti ötən 126 ildə əlamətdar hadisələrlə zəngin özünəməxsus inkişaf yolu keçərək, xalqımızın mədəni-mənəvi həyatında mühüm rol oynayıb. "Azərbaycanfilm"də indiyədək 2 mindən çox müxtəlif növ və janrda film istehsal olunub. Onların bir hissəsi, o cümlədən "Arşın mal alan", "Şərikli çörək", "Ad günü", "Sevinc buxtası", "İstintaq", "Yaramaz" və başqaları Dövlət mükafatlarına, bir çox filmlər, o cümlədən "Ögey ana", "Uzaq sahillərdə", "Arşın mal alan", "Bizim Cəbiş müəllim", "Axırıncı aşırım", "Nəsimi", "Özgə vaxt", "Sarı gəlin", "Ovsunçu", "Buta", "Çölçü", "Nabat", "Axınla aşağı" və digərləri beynəlxalq və digər kinofestivalların mükafatlarına layiq görülüb.

Dərin minnətdarlıq duyğusu ilə vurğulayım ki, bir neçə gün əvvəl Prezident İlham Əliyev "Azərbaycan kino işçilərinin təltif edilməsi haqqında" sərəncam imzalayıb. Bu sənədə əsasən, Azərbaycan kinematoqrafiyasının inkişafında xidmətlərinə görə 5 nəfər "Tərəqqi" medalı ilə təltif edilib, Azərbaycan kinematoqrafiyasının inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə isə 2 nəfərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü veriləcək. Hər il olduğu kimi, bu il də Azərbaycan Kinosu Günü ilə bağlı ölkəmizdə müxtəlif tədbirlər, mərasimlər, yeni filmlərin təqdimatı təşkil olunub. Bir sözlə, bugünün zirvəsindən milli kinomuza baxanda nikbin hisslər yaranır.

**– Bəs, Azərbaycan Kinematoqrafçılar İttifaqı bayramı nə ilə əlamətdar etdi?**

– Biz də müxtəlif nominasiyalar üzrə 4 pullu mükafat verdik. Bundan başqa, "Arxa cəbhənin insanları" ssenari müsabiqəsinin nəticələrini elan etdik. Bilirsiniz ki, ssenari kinonun əsasıdır və bu, haradasa zəif damarımız sayılır. Əminik ki, ssenari işi tam düzələndə, əsl ssenari təfəkkürü formalaşanda kinomuzda da böyük uğurlar olacaq. Budəfəki müsabiqəni arxa cəbhəyə ona görə həsr etdik ki, biz 44 günlük müharibəni şvartseneggerlərlə, rembolarla dünyaya təqdim edə bilməyəcəyik. Odur ki, bu müharibəni insan hekayələri ilə təqdim etməliyik. "Şərikli çörək", "Bizim Cəbiş müəllim", "Mən ki, gözəl deyildim" kimi.

**– Ümumi səviyyə necədir? Sizi qane edirmi?**

– Təbii ki, ssenari işimizin ümumi səviyyəsi müsabiqəyə təklif olunan işlərdə də özünü göstərir. Bizdə ssenari sahəsində ən böyük axsama personajın xarakterə çevrilməsindədir. Amma biz onların içərisindən seçmişik və sevindirici haldır ki, bəzi müəlliflər var, onlar tez-tez müsabiqələrdə iştirak edir və hər dəfə onların təkmilləşməsinə şahid oluruq. Amma ümumi səviyyə elə oldu ki, biz 1-ci və 2-ci yerlərə mükafat vermədik, əvəzində dörd 3-cü yer qalibini mükafatlandırdıq.

**– Struktur birləşməsindən sonra ittifaqda nə dəyişib?**

– Bildiyiniz kimi, birləşmə mart ayında oldu, amma buna qədər ötən ilin oktyabr ayında ofislər birləşmişdi. Martda hüquqi olaraq birləşmə sənədləri Ədliyyə Nazirliyinə verildi, amma kadr dəyişikliyi ilə bağlı ittifaqın qeydiyyatdan keçməsi yubanır. Əslində, bu, formal bir işdir, çünki komandalar arasında heç bir narazılıq olmayıb və birləşmə tam qarşılıqlı anlaşma şəraitində baş tutub, buna görə də işlərimizdə xeyli irəliləyişlər var. Layihələrimizə davam edirik, əlavə olaraq, Şəfiqə xanım və onun komandasının timsalında da xeyli dəstək qazanmışıq. Şəfiqə xanım həm də anadır, ana isə həmişə nə iş görür-görsün, buna qayğıkeş analıq instinkti ilə yanaşır. Bizim birləşməmizdə də dialoqa, harmoniyaya meyilli şəxsiyyət kimi özünü göstərdi.

Bilirsiniz, Azərbaycanda kino səpkili ictimai təşkilatlar onsuz da 5-dən çoxdur. Mən özüm Gənc Film İstehsalçıları Assosiasiyasının (AGFİA) sədriyəm. İndi Kino Agentliyi ilə müqavilə nəticəsində biz kinoinfo, yəni kino xəbərləri saytını icra edirik. Bundan başqa "Fokus" analitik kino jurnalının da naşiri AGFİA-dır. Daha sonra Fehruz Şamıyevin rəhbəri olduğu Gənc Sinemaçılar Mərkəzi uzun müddətdir, müxtəlif layihələr həyata keçirir. Əvvəllər "Start" adlanan, daha sonra "Baku Short film", sonra isə " Bakı beynəlxalq film festivalı" adlı böyük bir layihə keçirirlər. Eləcə də, Rəşid Ağamalıyev Animasiya Assosiasiyasını yaradıb. İş burasındadır ki, istər-istəməz hər sahədə öndər bir təşkilat olur. Ümumiyyətlə, bizdə çox pis bir ənənə olub ki, bu da ənənəyə hörmətsizlikdir. Halbuki, ənənəni qoruyub saxlamaq lazım idi. Hər dəfə biz bir layihə irəli sürəndə, bir hədəf qoyanda fundamental olaraq 1963-cü ildən fəaliyyət göstərən təşkilatın layihəsi olması çox vacibdir.

İdarə heyətində indi 38 üzv var: Anar, Vaqif Mustafayev, Cahangir Mehdiyev, Həmidə Ömərova, daha kimlər, kimlər… Əsas odur ki, bütün Azərbaycan kinosunun nüfuzlu şəxsləri oradadır və əksəriyyət anlayır ki, kinemotoqrafçıların hökumətə səsini çatdırmaq üçün ən yaxşı vasitə AKİ və onun sədri Rasim Balayevdir. Kino ilə bağlı həyəcan təbilini əvvəl biz və ARKİ ayrı-ayrılıqda çalırdıq, amma indi bir yerdə bu problemləri qaldırırıq. Baxın, bir bəyanat yazılır və 38 nəfərin imzası ilə qəbul olunur. Bu, artıq başqa bir gücdür. Orada gənclər də var: Kamran Qasımov, Türkan Hüseynova, Azər Hacıəsgərli, Amil Məməibəyli, bütün bu adamlar yaşı 40-dan aşağı olanlardır və onların güclü beynəlxalq əlaqələri var. Yəni idarə heyəti həm cins, həm yaş, həm zövq, həm nəsil cəhətdən çox geniş bir koalisiyadır və mən, açığı, onlara çox böyük ümid bəsləyirəm.

**– Bəs, Kino Agentliyi?**

– Düşünürəm ki, Kino Agentliyinin yaranması prosesi də bir az ləngidi. İndi Azərbaycan Kino Agentliyinin direktoru vəzifəsini təşkilatçılığı və təşəbbüsləri ilə seçilən Orxan Fikrətoğlu icra edir. Məncə, Kino Agentliyi, Mədəniyyət Nazirliyinin "Kino, video və video oyunlar" sektoru və nəhayət, "Kreativ sənayelər" şöbəsi – bu üçlüyün əl-ələ verib işləməsi çox vacibdir.

Onu da deyim ki, 2024-cü ildə dövlət tərəfindən maliyyələşən tammetrajlı bədii filmin premyerasının olmaması xoşagəlməz haldır, amma bu, indiki Kino Agentliyinin rəhbərinin səhvi deyil. Çünki film 2023-cü ildən istehsalata buraxılmalı idi ki, 2024-də premyera olsun. Buna baxmayaraq, səhv etmirəmsə, Kino Agentliyi qısametrajlı film ilə premyera edəcək. Müsabiqələr tez-tez olmalıdır. Bir az mənim narahatlığım bu mövzudadır. Həmin qurumların rəhbərlərinin birgə işini, həmrəyliyini görmək istəyirik.

Yeri gəlmişkən, biz həm Mədəniyyət Nazirliyi, həm də ARKA ilə sıx işləyirik. Mənim kinoinfo.az layihəm onlardan dəstək qazanıb. Bu, Azərbaycan tarixində ilk kino xəbər saytıdır və sənət yönlü yox, məhz marketinq yönlü saytdır.

**– Kinoteatral yayıma çıxarılan tammetrajı filmlər barədə nə deyə bilərsiniz?**

– Keçən il Azərbaycanda 22 adda belə film kinoteatral yayıma çıxıb və bunların heç biri dövlət tərəfindən dəstək almayıb. Bu ilin ilk 6 ayında 10-dan çox tam metrajlı bədii filmin premyerası olub. Onların içində sosial dramlar da var. Artıq lağ-lağı komediyalar dövrü bitib, sosial, sərt dramlar, melodramlar, uşaq filmləri prokata ayaq açıb. Bunu dəstəkləmək lazımdır. Biz Kinoittifaq olaraq, demək olar ki, kinonun mikromaliyyələşdirilməsi üzrə Azərbaycanda yeganə qurumuq. Onu da deyim ki, Kino Agentliyi, eləcə də Nizami kinoteatrı və "Azərbaycanfilm" studiyasında hazırda direktor yeri boşdur. Direktorun təyin olunması cənab nazirin səlahiyyətindədir və bizdə bu haqda heç bir informasiya yoxdur. Arzu ediləndir ki, bunlar təyin olunsun.

Mədəniyyət Nazirliyi tərəfindən kinematoqrafiya, rəqəmsal və digər audiovizual əsərlərin məzmununun qiymətləndirilməsi üzrə Ekspert Şurası da yaradılıb... Biz AKİ olaraq, ARKA-ya və digərlərinə istənilən dəstəyi etməyə hazırıq.

**– Azərbaycanda kinoteatr məsələsi nə yerdədir?**

– Bəy, ölkədə 2 kinoteatr şəbəkəsi var, o şəbəkələri yaradan adamlar bizim mədəniyyətimizin qəhrəmanlarıdır. Dövlətin onlara dəstəyi o ola bilər ki, həmin şəbəkələrə kreditlər versin, onlar da öz filiallarını rayonlarda, bölgələrdə aça bilsinlər. Bu, çox vacibdir. Biz "Cənubda kino günləri"ni həyata keçirdik, indi də "Şirvanda kino günləri" təşkil edirik. Bu proses davam edəcək: Aranda, Muğanda… Hədəf kino tamaşaçılarının sayını artırmaqdır. Kinoteatrda tamaşaçıların sayı çoxaldıqca istehsal da artacaq.

**– Müsahibəyə görə sağ olun!**

*Hazırladı:*
***Ə.DOSTƏLİ***
***XQ***

# Tarixin yadigarları yeni ömür qazanır



**Haqqında söhbət açmaq istədiyimiz sənət fədailərini mədəni irsimizin keşikçiləri də adlandırmaq olar. Xalqımıza məxsus tarixi və mədəni irsin yaşamasında onların böyük xidmətləri var. Bu peşəkarlar gördükləri hər işi səbirlə yerinə yetirir, tapşırıqların öhdəsindən məharətlə gəlirlər. Muzeylərdə seyr etdiyimiz bir çox tarixi və mədəni eksponatların ömrünü uzadanlar onlardır.**

Mədəni irsimizin gələcək nəsllərə çatdırılması üçün xüsusi əmək sərf edənlərin bir qrupu da Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi Bərpa Mərkəzində çalışan bərpaçı-rəssamlardır. Həmin Mərkəzə daxil olduqda, hər kəsin ağ xalatda hansısa bir işlə məşğul olduğu aşkar görünür. Budur, onlar bərpa və konservasiya prosesini icra edirlər. Baş çəkdiyimiz otaqlar bizi xəyalən keçmişə aparır. Bərpaçıların əllərində gözə dəyən hər eksponat sanki tarixin səsi ilə soraqlaşır, insanı nostalji ovqata kökləyir.

Bu hisslərlə mərkəzi dolaşərkən, əvvəlcə, bərpaçı-rəssam Tofiqə Zeynalovanın üzərində işlədiyi atlas parma marağımı çəkdi. Uzun illərdən bəri burada çalışan rəssamın hazırkı işi Üzeyir Hacıbəylinin 1910-cu ilə aid "Rüstəm və Zöhrab" operettasının ipəkdən ibarət proqramıdır. Bu tarixi əşya Mərkəzə C.Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyindən daxil olub. Həddən artıq həssaslıq tələb edən bu işin bərpa prosesi böyük əzmkarlıqla aparılır.

Bərpaçı-rəssamlar Xatirə Tağıyeva və Ləman Rəcəbli isə "Borular və buruqlar" rəsm əsəri üzərində yeniləmə işləri görürlər. Müəllifi Baba Əliyev olan bu əsər sulu boya ilə yenidən bərpa edilir. Sənət əsəri Milli İncəsənət Muzeyindən daxil olub.

Gedişatını izlədiyim növbəti iş də maraq doğurur. Azərbaycan Dövlət Rəsm Qalereyasına aid kiçik heykəlin üzərində bərpa işi Sima Bəydəmirovaya tapşırılıb. Sima xanım da digər həmkarları kimi, tapşırıqları sevə-sevə yerinə yetirir, peşəsindən zövq alır. Böyük zəhmət tələb edən işlərin görüldüyü maraqlı məkanda zəngin məlumatlar öyrənməyə davam etdik. Mərkəzin direktoru, Əməkdar mədəniyyət işçisi Zərifə Məlikova bizə rəhbərlik etdiyi qurumun fəaliyyət prinsipləri, burada görülən işlərin ümumi gedişatı barədə bilgi verdi. Öyrəndik ki, müxtəlif muzeylərdə bərpasına ehtiyac duyulan tarixi əşyalar ilk növbədə bu raya gətirilir, uzun bərpa prosesindən sonra əvvəlki formasına qaytarılır və yenidən aidiyyəti ünvana təhvil verilir.

– Buraya daxil olan eksponatlara ilkin mərhələdə müdaxilə etmək yolverilməzdir, – deyə Zərifə xanım bildirdi. – Bərpa üçün gətirilmiş məmulat, ilk növbədə, dezinfeksiya olunmalıdır. Sonra onun adına elmi pasport açılmalı, hazırkı vəziyyətini əks etdirən fotosu çəkildikdən sonra qurumun mütəxəssislərindən ibarət elmi şura bərpaçılara zəruri tövsiyələrini verməlidir. Bərpa metodu müəyyən edildikdən sonra işə başlanılır. Hər bir iş yekunlaşanadək mütəmadi məsləhətləşmələr aparılır. Bəzən tarixi lap qədimə dayanan eksponatlar olur ki, onlarla kövrək davranmaq zərurəti yaranır.

Məlumat aldıq ki, burada bərpa prosesi aylarla, illərlə davam edən eksponatlar da olub. Ancaq elə məmulatlar olub ki, bir neçə günün içində bütün işləri yekunlaşdırılıb. Məkana daxil olan hər bir əşya tarixi önəm daşıyır. Qurumun rəhbəri onu da söylədi ki, bu günədək mərkəzdə 30 minədək eksponatın bərpa işləri həyata keçirilib.

– Bu ilin əvvəlindən hazırkı vaxtadək 279 muzey eksponatı əməkdaşlar tərəfindən qəbul edilib. Eksponatlar Abdulla Şaiqin mənzil-muzeyi, Azərbaycan Milli İncəsənət Muzeyi, Azərbaycan Milli Xalça Muzeyi, Şəmkir, Quba, İmişli, Gəncə Tarix-diyarşünaslıq muzeyləri, Azərbaycan Dövlət Rəsm Qalereyası, Azərbaycan Dövlət Bayrağı Muzeyinə məxsusdur. Həmçinin Üzeyir Hacıbəylinin Şuşa şəhərindəki ev-muzeyinə aid eksponatlar 6 ədədi Mərkəzdə, 15 ədədi isə yerində bərpa olunub. Ümumilikdə, ilin əvvəlindən bu günədək Mərkəz tərəfindən 237 eksponat muzey və qalereyalara təhvil verilib.

Sonda onu da öyrəndik ki, Mərkəzin mütəxəssisləri hər il regionlarda bir neçə layihə icra edir, maarifləndirici tədbirlər keçirirlər.

***Ceyhun ALIŞLI***
***XQ***

# Rəsm əsərlərimiz Antalyada

**Türkiyədə fəaliyyət göstərən "Saküder" Beynəlxalq Sənət və Sənətkarlar Birliyinin yaranmasının 20-ci ildönümü münasibətilə Antalyada "Beynəlxalq incəsənət görüşü" adlı rəsm sərgisi açılıb.**




Sərgi şəhər muzeyinin sənət qalereyasında təşkil edilib. Türkiyə, Azərbaycan, Rusiya, Ukraynadan olan rəssamların əsərlərinin nümayiş olunduğu ekspozisiyada sərgidə Azərbaycanın Xalq rəssamı, professor Arif Hüseynov, rəssamlar Günəş Abbas, Anar Hüseynzadə, Bənövşə Ağayeva, Sevda Rüstəmova və Təranə Qəmərlinskayanın rəsmləri də yer alıb.

Tədbirin açılış mərasimində çıxış edən "Saküder"in rəhbəri Ali Eser incəsənətin həyatımızdakı rolundan danışıb, xüsusilə, Türk dünyası rəssamlarının mədəniyyətimizin dünyada birgə təbliğindəki rolunu qeyd edib.

Sərginin açılışında "2024-cü il sənət" mükafatının təqdimetmə mərasimi də keçirilib. Mükafata layiq görülən türkiyəli rəssam Nərmin Ünal çıxışı zamanı müəllimi, Azərbaycan Rəssamlar İttifaqının üzvü, Əməkdar rəssam Rəhim Məmmədova xüsusi təşəkkürünü ifadə edib.

Avqustun 15-dək davam edəcək sərgidə, ümumilikdə, 24 rəssamın əsərləri nümayiş olunur.

***XQ***

BEYNƏLXALQ HƏYAT

# Yaxın Şərq böhranı dərinləşir

**Yaxın Şərqdə hər an böyük müharibə başlaya bilər. Zatən, artıq 10 aya yaxındır ki, İsrail ordusu HƏMAS-ın terror hücumlarına cavab olaraq, Qəzzada genişmiqyaslı antiterror əməliyyatı həyata keçirir. Regionda yeni, daha böyük savaşın başlanması ehtimalı son dərəcə böyükdür.**



Dünən İsrail aviasiyası Qəzza zolağında "HƏMAS" yaraqlılarının gizləndiyi iki məktəbin ərazilərinə zərbələr endirib. Həmin məktəblərdə terrorçuların olduğu iddia olunur. Fələstin rəsmiləri bunu inkar edirlər. Qətərin "Əl-Cəzirə" telekanalı bildirib ki, zərbələr nəticəsində, azı, 30 nəfər həlak olub. Bütövlükdə, silahlı münaqişə başlanan gündən 40 minə yaxın fələstinlinin öldürüldüyü bildirilir.

Dünən ABŞ-nin dövlət katibi Antoni Blinken "Böyük yeddilər"in xarici işlər nazirləri ilə telefonla danışıb. O, İran və "Hizbullah"ın yaxın 24 saat ərzində İsrailə hücum edə biləcəyini deyib.

İndi bütün dünya İranın HƏMAS-ın Siyasi Bürosunun rəhbəri İsmayıl Haniyənin Tehranda öldürülməsinə necə cavab verəcəyini müzakirə edir. İsrail hökuməti isə İranın mümkün aviasiya zərbələrinə hazırlaşır.

Qərb dövlətləri Yaxın Şərqdə çalışan vətəndaşlarının təhlükəsizliyinin qayğısına qalmağa çalışır. Belə ki, bir sıra Avropa ölkələrinin hökumətləri "Hizbullah"ın İsrailə silsilə hava zərbələr endirməsi ilə əlaqədar soydaşlarını təcili olaraq Livanı tərk etməyə çağırıblar.

ABŞ, Fransa, Kanada və Britaniya öz vətəndaşlarına Livanı tərk etmələri barədə göstəriş verib. İordaniya da analoji addım atıb. Bir neçə beynəlxalq aviaşirkət isə regionda xidmətlərini dayandırıb və ya nəzərəçarpacaq dərəcədə azaldıb.

Ağ evin Milli Təhlükəsizlik Şurası müşavirinin müavini Conatan Fayner CBS telekanalının "Face the Nation" verilişində deyib: "Biz regional müharibənin heç kimin xeyrinə olmadığını düşünürük".

Bayden iqtidarı ölkədə seçkiöncəsi Yaxın Şərqdə müharibənin genişlənməsini arzulamır. Lakin artıq ox yaydan çıxıb. Hamı başa düşür ki, İran öz simasını qorumaq üçün mütləq cavab tədbirləri görməlidir.

Xatırladaq ki, İsmayıl Haniyə keçən həftə Tehranda İranın yeni prezidentinin andiçmə mərasimində iştirak etdikdən qısa müddət sonra qaldığı qonaq evində qətlə yetirildikdən sonra İranın ali lideri Ayətullah Əli Xameneyi "biz qisas almağı özümüzə borc bilirik", – deyə sərt açıqlama verib.

"New York Times" qəzetinin üç İran rəsmisinə istinadən verdiyi xəbərə görə, İranın ali rəhbəri Haniyənin öldürülməsinə cavab olaraq İsrailə birbaşa zərbə endirilməsi əmrini verib.

Ağ evin milli təhlükəsizlik sözçüsü Con Kirbi "Fox News Sunday" proqramında bu məsələ ilə bağlı sualın cavabında deyib ki, onlar ali liderin bəyanatını ciddi qəbul edirlər.

İsrailin hərbi qüvvələri "Hizbullah" yaraqlılarının ötən gecə ərzində İsrailin şimalına 30 mərmi atdığını, lakin onların əksəriyyətinin havada vurulduğunu bildirib.

Dünən gecə yazı çapa hazırlanarkən məlum oldu ki, "Hizbullah" yaraqlıları kamikadze dronlar vasitəsilə İsrail ordusunun 91-ci diviziyasının qərargahına hücum ediblər.

Bildirilib ki, bu hücum İsrailin Livanın Bazuriya və Hula yaşayış məntəqələrinə endirdiyi zərbələrə cavabdır.

"TRT Haber" məlumat yayıb ki, İslam Əməkdaşlıq Təşkilatının (İƏT) xarici işlər nazirlərinin avqustun 7-də iclası keçiriləcək. Bildirilib ki, iclasın əsas mövzusu Yaxın Şərqdəki durum və HƏMAS lideri İsmayil Haniyənin ölümündən sonra yaranan gərginlik olacaq.

Qeyd edək ki, İran daha əvvəl İƏT ölkələrinin fövqəladə iclasını çağırmışdı.

***Məsaim ABDULLAYEV***
***XQ***

# Banqladeşin baş naziri qaçıb



**Banqladeş ordusunun qərargah rəisi general Vaqar-uz-Zaman baş nazir Şeyx Hasinanın ölkədən qaçdığını təsdiqləyib. Bu barədə qərargah rəisi xalqa müraciətində deyib.**

O bildirib ki, müvəqqəti hökumət qurulacaq. Qərargah rəisi bütün ölüm hallarının araşdırılacağını deyib və xalqı orduya etimad göstərməyə çağırıb. O, vətəndaşları sülhü və asayişi qorumağa, zorakılıqdan çəkinməyə səsləyib.

Qeyd edək ki, yerli media Şeyx Hasinanın öz bacısı ilə birgə hərbi helikopterlə Hindistana qaçdığı barədə məlumat yayıb. Etirazçılar baş nazirin iqamətgahını ələ keçiriblər.

Xatırladaq ki, Banqladeşdə nümayişlər ötən aydan tələbələrin hökumət işləri üçün kvota sisteminə son qoymağa çalışması ilə başlayıb. Polis və hökumətyönlü fəallarla qarşıdurmalar 300-dək insanın ölümünə səbəb olan zorakılığa çevrilib.

***XQ***


## Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası

aşağıdakı kafedralarda professor və dosent vəzifələrini tutmaq üçün

MÜSABİQƏ ELAN EDİR

1. "İqtisadiyyat və idarəetmə" kafedrasına professor – 1 ştat.
2. "İqtisadiyyat və idarəetmə" kafedrasına dosent – 1 ştat.
3. "Maliyyə və mühasibat uçotu" kafedrasına dosent – 1 ştat.
4. "Riyaziyyat və informasiya texnologiyaları" kafedrasına dosent – 1 ştat.
5. "Həmkarlar İttifaqları Hərəkatı və sosial fənlər" kafedrasına dosent – 1 ştat.

**Telefonlar – 563-13-07, 563-15-40.**
**Ünvan – AZ 1130, Bakı şəhəri, Azadlıq prospekti 181.**

## Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası müəllim vəzifələrini tutmaq üçün müsabiqə elan edir

1. Azərbaycan dilində işgüzar akademik kommunikasiya – 1 ştat.
2. Xarici dildə (ingilis dili) işgüzar akademik kommunikasiya – 4 ştat.
3. Xarici dildə (rus dili) işgüzar akademik kommunikasiya – 1 ştat.
4. Korporativ maliyyə – 0.25 ştat.
5. Pul və banklar – 0.5 ştat.
6. Dövlət maliyyəsi – 0.5 ştat.
7. Maliyyə nəzəriyyəsi – 0.5 ştat.
8. Bank işi – 0.5 ştat.
9. Maliyyə risklərinin idarəedilməsi – 0.25 ştat.
10. Azərbaycan Respublikasının Konstitusiyası və hüququn əsasları – 0.5 ştat.
11. Sosial təminat – 0.25 ştat.
12. Bələdiyyə hüququ – 0.25 ştat.
13. Biznes hüququ – 0.5 ştat.
14. İqtisadiyyata giriş – 0.5 ştat.
15. Ətraf mühitin iqtisadiyyatı – 0.25 ştat.
16. İstehlakçı davranışları – 0.25 ştat.
17. Maliyyə nəzarəti və audit – 0.5 ştat.
18. Daxili audit və risklərin idarəolunması – 0.5 ştat.
19. İKT – baza kompüter bilikləri – 1 ştat.
20. İnformatika – 0.25 ştat.
21. İnformasiya kommunikasiya texnologiyaları – 0.25 ştat.
22. Gəlirlər və əmək haqqı siyasəti – 0.25 ştat.
23. Davamlı turizm strategiyaları – 0.25 ştat.
24. Sosial xidmət siyasəti – 0.25 ştat.
25. Gənclər təşkilatlarında sosial işin təşkili – 0.25 ştat.
26. Sosial işə giriş – 0.25 ştat.
27. Sosial iş təcrübəsində etik prinsiplər – 0.25 ştat.
28. Qloballaşma və beynəlxalq sosial iş – 0.25 ştat.
29. Təşkilatlarla sosial iş – 0.25 ştat.
30. Beynəlxalq maliyyə hesabatları standartları – 0.25 ştat.
31. Bank risklərinin idarə olunması – 0.25 ştat.
32. İnvestisiya portfelinin idarə olunması – 0.25 ştat.
33. Maliyyə hesabatlarının təhlili – 0.25 ştat.
34. Sosial sahələrin iqtisadiyyatı – 0.25 ştat.
35. Beynəlxalq iqtisadiyyat – 0.25 ştat.
36. Azərbaycan tarixi – 0.75 ştat.
37. Sağlamlıq, əməyin təhlükəsizliyi və ətraf mühitin mühafizəsi – 0.5 ştat.
38. Ekologiya – 0.25 ştat.
39. Neyrobiologiya – 0.25 ştat.
40. Ehtimal nəzəriyyəsi və riyazi statistika – 0.25 ştat.
41. Xətti cəbr və riyazi analiz – 0.25 ştat.
42. Audit – 0.25 ştat.
43. Sosial işdə riyazi metodlar – 0.25 ştat.
44. Ekonometrika – 0.25 ştat.
45. İqtisadiyyatın tənzimlənməsi – 0.25 ştat.
46. Milli iqtisadiyyatın inkişafı və tənzimlənməsi problemləri – 0.25 ştat.
47. Fərdlər, qruplar və ailələrlə sosial iş təcrübəsi – 0.25 ştat.
48. Sosial siyasət – 0.25 ştat.
49. Həmkarlar İttifaqları Hərəkatının əsasları – 0.5 ştat.
50. Sosial tərəfdaşlıq – 0.5 ştat.
51. Sosial işin etikası – 0.25 ştat.
52. İnsanın sosial mühitdə davranışı – 0.25 ştat.
53. Azərbaycan iqtisadiyyatı – 0.25 ştat.
54. Sosial iş nəzəriyyəsi və təcrübəsi – 0.75 ştat.
55. Sosial proqramlar və xidmətlər – 0.25 ştat.
56. Qaçqın və məcburi köçkünlərlə sosial iş – 0.25 ştat.
57. Sosial və iqtisadi mühitin sosial işə təsiri – 0.5 ştat.
58. Ahıllarla sosial iş – 0.25 ştat.
59. Dövlət idarəçilik nəzəriyyəsi – 0.25 ştat.
60. Strateji marketinq – 0.25 ştat.
61. Beynəlxalq nəqliyyat dəhlizi və logistik mərkəzlər – 0.25 ştat.
62. Pul-kredit tənzimlənməsinin nəzəri və praktiki aspektləri – 0.25 ştat.

Müəllim vəzifələrinin müsabiqəsində iştirak etmək istəyənlərin müvafiq ixtisas üzrə elmi dərəcələri olmalıdır. Sənədlər Azərbaycan Respublikası Elm və Təhsil Nazirinin 7 avqust 1996-cı il tarixli, 401 saylı əmri ilə təsdiq edilmiş qaydalara əsasən elan dərc olunandan bir ay müddətinədək Akademiyaya təqdim edilməlidir.

**Telefonlar – 563-13-07, 563-15-40.**
**Ünvan – AZ 1130, Bakı şəhəri, Azadlıq prospekti 181.**


# Meşəsi talanmış şirin hekayəti

## (yaşantı)

**Bəzən bir tutarlı deyim, rəvayət, bayatı, yaxud qısa süjetli film cild-cild romanlardan təsirli olur. Yüz illərdi dilimizdə əzbər olmuş misralara baxın. Nə vaxt dilə gətirsən göynədir insanı:**

**Əzizim Vətən yaxşı.**
**Geyməyə kətan yaxşı.**
**Gəzməyə qürbət ölkə,**
**Ölməyə Vətən yaxşı.**

Gör sözün çəkdiyi mənzərə, təsir dairəsi nə boyda, hansı ölçüdədi. Çünki dünya nə qədər böyük və cilvəli olsa da, doğulub boya-başa çatdığın, suyunu içdiyin, havasını udduğun və əzizlərinin uyuduğu məkan ki, var, o yer dünyada ən şirin torpaqdı.

Və sən hara getsən, harada olsan, hansı mərtəbəyə yüksəlsən, o torpaq səni daim qoynuna səsləyəcək. Axı, qürbət elə qürbətdi. O yerdə necə gözəl yaşasan da günəşi səni isitməz, nəqmələri səni ovutmaz. Sən gündüzlər olmasa da, yuxularında mütləq Vətənə dönəcək və bir anlıq da olsa, özünü xoşbəxt sanacaqsan.

Vətən sevgisi hər sevgidən əzəldi. O sevgi ana südü, ata öyüdü, Vətənin duz-çörəyilə qanına hopur. Vətən sənin ruhunun qanad açdığı və uyuduğu məkandı. Şair Abbas Səhhət də buna görə deyir:

**Vətənim verdi mənə nanü-nəmək.**
**Vətəni məncə unutmaq nə deməк?!**

***

Uca-uca dağların arasında, insan nəfəsi dəyməyən meşədə bir şir yaşayırdı. Meşə əhlindən heç biri onun qarşısında duruş gətirə bilmirdi. Övladlarını da özü kimi cəsur böyüdürdü. Günlərin bir günü meşəyə ovçular gəldilər. Onlar heyvanxana üçün meşənin ən gözəl, ən güclü şirini ovlayıb aparmaq istəyirdilər. Bu məqsədə nail olmaq üçün özləri ilə müxtəlif silahlar da gətirmişdilər. İstəklərinə nail olmasalar, meşədəkilərə divan tutacaqdılar.

Şir ilk tələdən başa düşdü ki, qonaqlar hansı yolla olur-olsun, onu tutacaqlar. Bununla belə o, ovçulara könüllü təslim olmağı qüruruna sığışdıra bilmirdi. Ancaq özünün əvəzinə övladlarının da övlanmasını istəmirdi. Həm də istəmirdi ki, meşədə qırğın olsun. Bilirdi ki, qırğın törədilsə, neçə-neçə heyvan öldürüləcək, ələ keçiriləcəkdi. Buna görə də təslim olmağı daha münasib bildi. Bir də şirə elə gəlirdi ki, haradasa insanların əlindən qaçıb qurtula biləcək.

Şir qəfəsə girməzdən əvvəl dönüb meşəyə və hücum əmrini gözləyən yurddaşlarına baxdı. Sonra nərə çəkib onlara meşənin dərinliklərinə çəkilməyi tapşırdı.

Dəmir qəfəsin ağzı bağlandı. Barmaqlıqlar o qədər möhkəm idi ki, onları heç cürə əymək mümkün deyildi. Uzun maşın meşədən çıxandan sonra qəfəsi qatara qoydular. Qatar dağların arasından, geniş düzlərdən, bolsulu çaylardan keçir, günbatana doğru gedirdi. Şir elə bil yuxu görürdü. O yalnız axşamlar gündüz gördüklərinin yuxu olmadığını başa düşürdü. Çünki gecə yarıdan keçəndən sonra şir yuxuya gedirdi. Bu zaman o, yolboyu gördüklərini unudub yuxusunda meşəyə qayıdırdı. Yenə meşədə övladları ilə qürurla gəzib-dolanırdı. Meşə əilsəi də onu salamlayır və baş əyirdi. Ayılanda isə...



Yol uzun çəkdi. Bir sübh çağı qatar şəhərin kənarında dayandı. İnsanlar şir olan qəfəsi kranla qaldırıb maşına qoydular və harasa getdilər. Maşın dayananda şir ilk dəfə qəfəsdə atılıb-düşən meymunu gördü. Sonra o biri heyvanlar ayağa qalxıb şirə doğru baxmağa başladılar. Hiss olunurdu ki, onların çoxu şirin heyvanxanaya gəlişinə sevinirlər.

Şirlə ayını qonşu elədilər. "Otaq, insafən, geniş və səliqəli idi. Ancaq şir buna sevinmirdi. Qonşular da səslərini içlərinə çəkib dayanmışdılar. Sanki hamı şirin nə deyəcəyini və nə edəcəyini gözləyirdi. Şir isə susurdu. Yatanda da heç kəsdən səs çıxmırdı. Əslində heç kim yatmırdı. Sadəcə, onlar gecələr ömür paylarının ötmüş çağlarını yenidən yaşayırdılar.

Şir gələn gündən heyvanxanaya qəribə sükut çökmüşdü. Bu sakitlik nəinki heyvanlara baxmağa gələnləri, eləcə də heyvanxana işçilərini də təəccübləndirirdi.

Günlər, aylar beləcə ötürdü. Şir isə doğma meşəsini, balalarını unuda bilmirdi. Daha yuxulardan da bezmişdi. Çünki arzusunda olduqlarının yuxu olduğunu bildikdə daha da əzab çəkirdi.

Günlərin bir günü gözlənilən məqam yetişdi. Şirə yem verən xidmətçi qəfəsin qapısını bağlamağı unutdu. Şirin bunu görcək gözləri parladı, sanki, qollarına yeni güc gəldi. Gecədən xeyli keçmiş o, qəfəsdən çıxdı. Ayı da, meymun da şirin azadlığına sevindilər, ancaq səs salıb aləmi oyatmaq istəmədilər.

Qəfəsdən çıxan kimi, azadlıq havası axıb şirin ciyərlərinə doldu. O, bir anda heyvanxanadan uzaqlaşdı və bir də onda gördü ki, şəhərin kənarındadır. Nəfəsini dərmək üçün uca bir ağacın altında uzandı. Az sonra qalxıb yoluna davam etdi. Şir gecə-gündüz yol getdi və nəhayət, doğma yurda çatdı. Şir gözlərinə inana bilmirdi. O gözəl meşədən ancaq kol-kos qalmışdı. Tək-tək heyvan gözə dəyirdi. İnsanlar meşəyə elə divan tutmuşdular ki...

Bu dəhşətli mənzərədən təsirlənən şir elə bir nərə çəkdi ki, nəinki məhv edilmiş meşənin daşı-torpağı, eləcə də qarşıdakı uca dağın zirvəsi titrədi. Bir azdan o, yuxarıya, lap uca zirvəyə doğru getdi...

***

Cizgi filmi məni yaman kövrəltmişdi. Kino zalını tərk edəndə nəvəm soruşdu:

– Baba, o şir indi harada yaşayır?

Mən sakitcə:

– Daha yaşamır, – dedim.

– Niyə, baba?

– Çünki yurdu, Vətəni məhv olanlar yaşaya bilməzlər.

Nəvəm daha sual vermədi və yolboyu yanımda sakitcə addımladı. Yaqin uşaq hələ də üzü zirvəyə doğru gedən qürurlu şir haqqında düşünürdü.

***Səməd MƏLİKZADƏ***


## Dəvəli" ASC səhmdarlarının nəzərinə!

22 sentyabr 2024-cü il saat 11:00-da cəmiyyətin növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. "Dəvəli" ASC-nin 2023-cü maliyyə ili üzrə illik hesabatlarının, mühasibat balansının, mənfəət və zərər hesabatlarının təsdiq edilməsi və mənfəətin bölüşdürülməsi.

2. Cari məsələlər.

Ümumi yığıncaqda bütün səhmdarların şəxsiyyətini təsdiq edən sənədlə iştirakı vacibdir.

Əlaqə telefonu – (012) 430-83-52.

Ünvan – Bakı şəhəri, Yasamal rayonu, 2-ci Alatava, Dadaş Bünyadzadə küçəsi 212.

***İdarə heyəti***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 165 (30569) 6 avqust 2024-cü il, çərşənbə axşamı

# “Paris-2024”: Olimpiya rinqindən də “qızıl” gözləyirik

**Azərbaycanın milli Olimpiya komandası cüdoçuların 2 qızıl medalından sonra daha bir uğura imza atıb. Bu dəfə Olimpiya rinqində finala sevindik.**




İlk görüşündə 2 qat Olimpiya çempionu Xulio Sezar La Krusu, daha sonra Aybek Oralbayı (Qazaxıstan) məğlub edərək yarımfinala yüksələn Alfonso Dominqesin (92 kq) növbəti görüşü bazar günü Emanuel Reyes Pla (İspaniya) ilə olub. Təmsilçimiz Kuba əsilli idmançını 4:1 (28:29, 29:28, 29:28, 29:28, 30:27) hesabı ilə məğlub edərək, finala yüksəlib. Bununla da, komandamız 2 qızıl medaldan sonra azı gümüş mükafatı özü üçün təmin edib. “Tokio-2020”də bürünc medal qazanan Alfonso Azərbaycan tarixinə iki Olimpiya medalı qazanan ilk boksçu kimi düşüb.

Buna qədər boks Olimpiya komandamız iştirak etdiyi 7 olimpiadanın hamısında medal qazanmaqla 9 mükafat əldə etsə də, yığmamızın aktivində həlelik qızıl medal yoxdur. Debütü “Atlanta-1996”da gerçəkləşən boks yığmamız bunadək yalnız bir dəfə finalda təmsil olunub. “Rio-2016”da Lorenso Sotomayor yarımfinala çıxsa da, təəssüf ki, final səddini keçə bilməyib və gümüş mükafatla kifayətlənib.

**Alfonso Dominqes Azərbaycan boks komandasında çatışmayan qızıl medalı qazanmaq niyyətindədir. Rinq ustası özü də Olimpiadaya “qızıl” üçün getdiyini deyib:**

– Finala qədər güclü rəqiblərlə üz-üzə gəldim. Hər bir rəqibimə böyük hörmətlə yanaşıram. Artıq həll-edici mərhələdəyəm. Hər şey yüksək səviyyədədir. Rəqibim mənim qızıl medal qazanmaq istəyimə mane ola bilməyəcək. Azərbaycana qızıl medalla qayıtmaq istəyirəm.

İstedadlı rinq ustamız finalda güclü boks ölkələrindən biri olan Özbəkistan təmsilçisi Lazizbek Mullojonov ilə üz-üzə gələcək. Təmsilçimizin Tokio Olimpiadasından Paris Oyunlarına qədər olan müddətdə böyük uğurlar əldə etməsi “qızıl” ümidlərimizi artırır. O, 2021-ci ildə Belqradda keçirilən dünya çempionatında qızıl medala layiq görülüb. Son dünya çempionatının gümüş mükafatını alıb. Builki Avropa çempionatında 3-cü yeri tutub.

Onun finaldakı rəqibi Lazizbek Mullojonov isə son Dünya çempionatında 3-cü yerin sahibi olub. 2022-ci ildə Asiya çempionatının qalibi adını qazanıb. Təbii ki, Özbəkistanın güclü boks ənənələrinə də diqqət yetirmək lazımdır. Bu ölkənin təmsilçilərinin son 7 Olimpiya Oyunlarında qazandıqları 10 qızıl medalın tən yarısı –5-i boksun payına düşür.

Beləliklə, Azərbaycan boks üzrə ilk dəfə qızıl medal qazanmağa çox yaxındır. Əminik ki, müstəqillik dövründə iştirak etdiyimiz olimpiadalar tarixində boksda 10-cu – yubiley mükafatımız qızıl medal olacaq!

## Yunan-Roma güləşçimiz yarımfinalda

**Avqustun 5-dən Azərbaycanın yunan-Roma güləşçiləri Paris Yay Olimpiya Oyunlarında mübarizəyə başlayıblar.**



Dünyada ən güclü rəqiblərdən sayılan “klassiklərimiz”dən Parisdə yüksək nəticələr gözləmək üçün əsas var. Təsadüfi deyil ki, ötən il yunan-Roma güləşi üzrə millimiz (kişilər) komandalar arasında ilk dəfə Dünya çempionu olub. Eyni zamanda, U-23 Avropa çempionatında da yunan-Roma güləşçilərimiz ilk dəfə qitənin ən güclüsü adına layiq görülüblər. Elə olimpiadalarda da onların çıxışına nəzər salsaq, son 5 olimpiadanın hamısından Vətənə medallarla qayıtdıqlarını görərik. Bu idman növü üzrə ən böyük nailiyyəti “Afina-2004”də Fərid Mansurov qızıl medal əldə etməklə qazanıb.

Dünən əvvəlcə millimizin üzvü Murad Məmmədov (60 kq) 1/8 finalda Venesuela təmsilçisi Rayber Xose Rodriges Orozko ilə qarşılaşıb. Son Dünya çempionatlarının bürünc və gümüş mükafatçısı, builki Avropa çempionatının qalibi 5-6 hesabı ilə məğlub olaraq, mübarizəni dayandırıb.

Sabah Şəriəti (130 kq) də mübarizəyə 1/8 finaldan start verib. “Rio-2016”nın bürünc mükafatçısı estoniyalı Heiki Nabiyə qalib gəlib.

1/4 finalda isə qazaxıstanlı Alimxan Sızdikov ilə üz-üzə gələn pəhləvanımız 4:0 hesabı ilə qalib gələrək adını yarımfinala yazdırıb.



## Dopinqə bulaşmış idmançı “Olimp”ə qayıdıb

**Dopinqdən istifadəyə görə yarışdan kənarlaşdırılan polşalı kanoeçi Dorota Borovskayanın cəzası ləğv edildiyindən “Paris-2024”də iştirak edəcək.**

Qeyd edək ki, idmançının orqanizmində “klostebol” tapılıb. Borovskaya bunun krem vasitəsilə orqanizminə düşdüyünü iddia edib.

Avqustun 1-də kanoeçinin müvəqqəti kənarlaşdırılmasına qərar verilsə də, bir neçə gün sonra İdman Arbitraj Məhkəməsi qərarını dəyişib.

Qeyd edək ki, kanoeçilərin yarışları bu gün start götürür.

## Sena 2 idmançını yoluxdurub

**Paris Olimpiadasının açıq suda üzgüçülük yarışlarının keçirildiyi çirkli Sena çayı ətrafında qalmaqal davam edir.**



Avqustun 5-də məlum olub ki, isveçrəli triatlonçular Adrien Briffo və Simon Vesterman bağırsaq infeksiyası səbəbindən qarışıq estafet yarışında iştirak edə bilməyəcəklər.

Əvvəlcə Oyunlarda fərdi startda 49-cu yeri tutan Briffo yarışda iştirak etməli olsa da, səhhətində yaranan problemlərə görə sonradan Vesterman ilə əvəzlənib. Lakin bundan sonra Vestermana da bağırsaq infeksiyası diaqnozu qoyulub. Bu səbəbdən o start xəttinə çıxmayıb.

Bundan əvvəl belçikalı qadın triatlonçu Kler Mişel eyni diaqnozla xəstəxanaya yerləşdirilib.

# Paris şousu Vatikanı məyus edib

**Vatikan Parisdə Olimpiya Oyunlarının açılış mərasimindəki “müəyyən səhnələrdən” məyus olub. Müqəddəs Taxt-Tac, rəsmi mətbuat xidmətinin bəyanatında qeyd edildiyi kimi, söz və ifadə azadlığını şübhə altına almır, ancaq başqalarına da hörmət olunmasını vacib sayır.**



“Müqəddəs Taxt-tac son günlərdə bir çox xristianların və başqa dinlərə etiqad edənlərin müəyyən səhnələrdən incidiyini qeyd edənlərin səslərinə qoşulmaya bilməz. Ümumi dəyərləri bir araya gətirən belə bir mötəbər tədbirdə dini inancları təhrif edən metaforalara əl atmaq olmaz”, - deyə məlumatda vurğulanıb.

İyulun 26-da Parisdə keçirilən Oyunların açılış mərasimində Leonardo da Vinçinin “Son şam yeməyi” əsərinin təxribat xarakterli parodiyası nümayiş etdirilib. Bundan əlavə, tədbir bir sıra təsadüfi hallarla yadda qalıb. Belə ki, Eyfel qülləsi yaxınlığındakı Olimpiya bayrağı bayraq dirəyinə tərs asılıb və stadionda diktorlar Cənubi Koreya idmançılarını KXDR nümayəndələri kimi təqdim ediblər.

## Olimpiya çempionu niyə küçədə yatıb?



**İtaliyalı üzgüçü Tomas Çekkon Parisdə Olimpiya kəndinin küçəsində yatarkən görüntülənib. İdmançı 2024-cü il Oyunlarının iştirakçılarının otaqlarında kondisioner olmadığına görə etiraz edib.**

Əvvəllər Çekkon Olimpiya kəndindəki yaşayış şəraitindən şikayətlənərək, “Tokio-2020” Olimpiadasında təşkilatçılığın Fransa paytaxtından daha yüksək səviyyədə olduğunu söyləyib.

Qeyd edək ki, Tomas Paris-2024-də 100 metr məsafəyə arxası üstə üzmə yarışında qızıl, eyni məsafəyə estafetdə bürünc medal qazanıb.

## İlk 5 qat Olimpiya çempionu

**5 qat Olimpiya çempionu tituluna yiyələnən fransalı cüdoçu Teddi Rinerin adı olimpiadalar tarixinə düşüb.**

Riner növbəti uğuruna dünən keçirilən komanda yarışlarında imza atıb. Onun çıxış etdiyi Fransa yığması Oyunların finalında Yaponiyaya 4:3 hesabı ilə qalib gəlib. İdmançı fərdi yarışlarda +100 kq çəki dərəcəsində də qızıl medal qazanıb.

35 yaşlı fransalı London-2012, Rio-2016 və Tokio-2020 olimpiadalarında da qalib olub.



# Aranda isti, dağlarda yağış və duman davam edir

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, avqustun 6-da Bakıda və Abşeron yarımadasında əsasən yağmursuz keçəcək. Cənub-qərb küləyi əsəcək, səhər mülayim şimal-qərb küləyi ilə əvəz olunacaq. Gecə 21-26°, gündüz 33-38° isti olacaq.**

Atmosfer təzyiqi normadan aşağı 753 mm civə sütunu, nisbi rütubət gecə 70-80 , gündüz 50-60 faiz olacaq. Abşeron çimərliklərində gözlənilən dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 26-27° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 27-28° isti olacaq. Azərbaycanın əksər rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq və dağətəyi rayonlarda fasilələrlə yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 21-26°, gündüz 35-38°, bəzi yerlərdə 40°, dağlarda gecə 13-18°, gündüz 21-26° isti olacaq.



*Q. QASIMOV*
*XQ*

*2018-ci ildə Quba rayon Hacıqayıb kənd tam orta məktəbi tərəfindən Samir Fəxrəddin oğlu Yarəliyevin adına verilmiş tam orta təhsil haqqında EN seriyalı, 161851 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.*

*Səhifəni hazırladılar:*
*Səbuhi MƏMMƏDOV,*
*Leyla QURBANOVA*
*XQ*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3459
SİFARİŞ 1762
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV

Çapa imzalanmışdır 00:00